www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 sentyabr 2015-ci il Cümə № 207 (6235) Qiymөti 40 qəpik

Xəbər

## 12 yaşlı məktəblinin intiharının şok təfərrüatları

yazısı səh.6-da

Gündəm

### Erməni müxalifətçi Azərbaycana qaçdı



Bu gün Bakıda Vaan Martirosyanın və arvadının iştirakı ilə mətbuat konfransı olacaq

yazısı səh.8-də

### Döyülərək öldürülən jurnalistin 40 mərasimi keçirildi

yazısı səh.3-də

*Siyavuş Novruzov:*

### "...İnciməyə haqları var"

yazısı səh.10-da

### Samir Şərifov bədbin proqnoz verdi

yazısı səh.5-də

### İcra başçısı ilə tanınmış vəkil arasında qalmaqal

yazısı səh.12-də

### Beynəlxalq Bank Avropadan 50 milyon avro borc aldı

yazısı səh.5-də

### Hakimiyyətin növbəti "müxalifətsiz seçki" taktikası

yazısı səh.9-da

### Avropa liderləri Azərbaycanla bağlı vəziyyəti müzakirə edirlər

yazısı səh.8-də

### Nazir övladlarına niyə etimad göstərilmədi?

yazısı səh.4-də

### Qarabağ məsələsi BMT gündəliyinə gətirilir

yazısı səh.11-də

### Rusiyalı politoloqdan ilginc açıqlamalar

yazısı səh.4-də

### Şəki seçki dairəsində lətifə kimi olay

yazısı səh.10-da

## Nəqliyyat nazirinin niyə görünməməsi ilə bağlı sensasion xəbər

# ZİYA MƏMMƏDOV İZOLYASİYADA - "İŞƏ ÇIXMIR..."

Ziya Məmmədov avqustun əvvəlindən prezidentin müşavirəsində və digər rəsmi tədbirlərdə iştirak etmir; onu müavinlərinin təmsil etməsi haqlı suallar yaradıb; nazir oğlu isə bir neçə gün əvvəl Amerikaya gedib...




yazısı səh.5-də

# Bakı-Sumqayıt yolunda qətliam kimi qəzalar - 6 ölü

Şosselərdə quraşdırılan dəmir arakəsmələr ölüm saçır; ictimai nəqliyyat sahibləri ilə bağlı məsuliyyət dərəcəsinin artırılması təklif edilir; Sumqayıtda daha bir qadını qatar vurub öldürdü

yazısı səh.13-də



*Əli Əlirzayev:*

### "YAP-ın siyahısından parlamentə 40-45 nəfər keçəcək"

yazısı səh.7-də



Məlahət Mürşüdlü

### Əfv Komissiyasının üzvü nə "hə", nə "yox" dedi

yazısı səh.3-də



*Rauf Arifoğlu:*

### "Son qərarımı 24-25 sentyabrda elan edəcəm"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015



## İlham Əliyev Kürdəmirdə bir sıra obyektlərin açılışını etdi

**Prezident İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna səfərə gedib.**

Prezident Kürdəmir şəhərində Bayraq Meydanının açılışında iştirak edib.

Prezident İlham Əliyev Kürdəmirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında da iştirak edib.

## Brayza Ərdoğan haqda proqnoz verdi

**"AKP itirilmiş mövqelərini bərpa edə bilsə, prezidentin səlahiyyətləri genişləndiriləcək". Türkiyədə təkrar parlament seçkilərinin ləğv edilməsi ehtimalı olduqca azdır. Bunu "Trend"ə ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri, Tallində fəaliyyət göstərən Beynəlxalq Müdafiə Araşdırmaları Mərkəzinin direktoru Metyu Brayza bildirib.**

Onun sözlərinə görə, seçkilərin təxirə salınmasını yalnız PKK istəyir: "Qarşıdakı seçkilər AKP-nin 2002-ci ildə hakimiyyətə gəlişindən bəri Türkiyə üçün ən vacib seçki olacaq: "Prezident Rəcəb Tayyib Ərdoğan ümid edir ki, hakim partiya təkrar parlament seçkilərində səslərin çoxunu qazanacaq. Bununla da onun prezidentin səlahiyyətlərini genişləndirmək və parlament hakimiyyətini məhdudlaşdırmaq üçün Türkiyə Konstitusiyasını dəyişdirmək imkanı yaranacaq".

Ekspert hesab edir ki, əgər AKP itirilmiş mövqelərini bərpa edə bilsə, prezidentin **səlahiyyətləri genişləndiriləcək:** "AKP kifayət qədər səs toplaya bilməsə, Ərdoğan Türkiyə siyasətində daha az vacib rol oynayacaq ki, bu da ölkənin siyasi xəritəsini kökündən dəyişdirəcək".

**M.Brayza qeyd edib ki, AKP-nin seçkilərdə qələbə qazanmaq üçün yaxşı şansları var:** "Ərdoğan kifayət qədər bacarıqlı siyasətçidir və Türkiyənin yarısı onu dəstəkləyir. Digər tərəfdən, iddia etmək olmaz ki, AKP qələbə qazanacaq. Seçkilərə isə bir neçə həftə qalıb. AKP seçkiqabağı kampaniyada qələbə qazanmaq üçün bütün resurslarından istifadə edir".

## 10 ildə büdcənin göstəriciləri necə dəyişib?

**Gələn ilin dövlət büdcəsinin ilkin layihəsində gəlirlər 14 milyard 566 milyon manat, xərclər 16 milyard 264 milyon manat həcmində proqnozlaşdırılır. Bu ilin proqnozları ilə müqayisədə büdcənin gəlirləri 4 milyard 872 milyon manat, xərcləri 4 milyard 836 milyon manat az nəzərdə tutulur. 2015-ci il üçün gəlirlər 19 milyard 438 milyon manat, xərclər 21 milyard 100 milyon manat məbləğində təsdiq edilib.**

Transparency.az son 10 ildə büdcə göstəricilərinin necə dəyişdiyinə nəzər salıb. Rəqəmləri təqdim edirik:

2005-ci ilin dövlət büdcəsi: gəlir - 2 milyard 55,2 milyon manat, xərc - 2 milyard 147,2 milyon manat;

2006-cı ilin dövlət büdcəsi: gəlir - 3 milyard 881,2 milyon manat, xərc - 3 milyard 789,7 milyon manat;

2007-ci ilin dövlət büdcəsi: gəlir - 6 milyard 6,6 milyon manat, xərc - 6 milyard 59,5 milyon manat;

2008-ci ilin dövlət büdcəsi: gəlir - 10 milyard 762 milyon manat, xərc - 10 milyard 680 milyon manat;

2009-cu ilin dövlət büdcəsi: gəlir - 10 milyard 325,9 milyon manat, xərc - 10 milyard 567, 9 milyon manat;

2010-cu ilin dövlət büdcəsi: gəlir - 11 milyard 402,5 milyon manat, xərc - 11 milyard 766 milyon manat;

2011-ci ilin dövlət büdcəsi: gəlir - 11 milyard 700,7 milyon manat, xərc - 15 milyard 394,7 milyon manat;

2012-ci ilin dövlət büdcəsi: gəlir - 17 milyard 281,6 milyon manat, xərc - 17 milyard 105,6 milyon manat;

2013-cü ilin dövlət büdcəsi: gəlir - 19 milyard 494,6 milyon manat, xərc - 19 milyard 143,5 milyon manat;

2014-cü ilin dövlət büdcəsi: gəlir - 18 milyard 400,5 milyon manat, xərc - 18 milyard 699,3 milyon manat.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Rauf Arifoğlu: "Son qərarımı 24-25 sentyabrda elan edəcəm"

**"Yeni Müsavat" qəzetinin baş redaktoru seçkidə iştirak edib-etməyəcəyi ilə bağlı ona ünvanlanmış çoxsaylı suallara cavab verib. Baş redaktor musavat.com-a açıqlamasında bunları deyib:**

"Daha çox həmkarlarım sual edirlər, seçkilərdə iştirakla bağlı son qərar verdinizmi?

Qərəzkarlarımın bəziləri isə məni artıq deputat "seçib".

Gerçəksə budur ki, hələ də tərəddüdlü durumum qalır. Bakı dairələrindən birinin üzərində dayanmışam. İlkin hazırlıqlar da aparılıb. Lakin qəti qərarı verməmişəm. Düşünürəm ki, 24-25 sentyabra qədər zamanım var. Seçki mühiti, ortam, şərtlər uyğun olsa və inansam ki, mənim qələbəm keçən dəfələrdə (2005-2010) olduğu kimi, dəyişdirilməyəcək, namizədliyimi verəcəm.



Bunlardan hər hansı biri olmasa, boşuna zaman və para xərcləmək fikrim yoxdur. Bunu əvvəl də demişəm, bir daha təkrar edirəm: hazırda imkanlarımız, mövqeyimiz və gücümüz bir neçə deputatın birlikdəki imkanından, gücündən daha yüksəkdir. Biz hər kəsə olduğu kimi, yeri gələndə bir sıra deputatlara, bəzən digər vəzifəli şəxslərə dəstək oluruq, problemlərini həll edirik.

Rayonlara gedib, seçki kampaniyası keçirmək isə, əvvəldən də dediyim kimi, istisna olunur; Yeni Müsavatın işinə, həyatımızın ritminə mənfi təsir edəcək; heç uyğun deyil.

Bu baxımdan, bir sıra "qaranquşlar" məni kimlərləsə üz-üzə qoymaq zəhmətini çəkməsinlər. Namizədliyimizi versək, Bakıdan verəcəyik, verməsək, «Yeni Müsavat», musavat.com, minval.az adlı tribunalarımızdayıq...

Hər hansı yekun qərarı gələn həftə qeyd olunan media quruluşları vasitəsilə bildirəcəm. O zamana qədər xahişim budur ki, hörmətli həmkarlarım bu mövzuda məni narahat etməsinlər".

BBC MONITORING

## BBC Azərbaycanı tərk edir

**"BBC Monitoring" Azərbaycandakı fəaliyyətini yekunlaşdıraraq ölkədən getməyə hazırlaşır.**

"Sputnik" saytı xəbər verir ki, "BVS Monitoring" 6 ay ərzində Azərbaycandakı fəaliyyətini başa vurub Tiflisə köçəcək.

"VVS Monitoring"in Bakı ofisindən bu informasiyanı şərh etmək istəməyiblər. BBC-nin Londondakı mənzil-qərargahından və rus xidmətindən də bu xəbərə şərh verməkdən imtina ediblər.

Yada salaq ki, "VVS Monitoring"in bürosu Azərbaycanda 15 ildən çoxdur fəaliyyət göstərir. Bu illər ərzində büro tərəfindən kəskin analitik materiallar hazırlamaq da daxil olmaqla, müxtəlif layihələr həyata keçirilib.

"VVS Monitoring" Böyük Britaniyanın BBC teleradioyayım korporasiyasının bütün dünyada TV-lər, çap və internet mənbələri üzərində monitorinqlər aparılmasına məsul qurumudur.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



## Azay Quliyevin deputatlığa namizədliyi 8 saylı dairədən irəli sürüldü

**8 saylı Binəqədi birinci seçki dairəsi ərazisində yaşayan elm xadimləri, gənclər, QHT təmsilçiləri, Qarabağ qaziləri və veteranları, media mənsubları və digərləri 1 noyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkidə Azay Quliyevin namizədliyinin irəli sürülməsi ilə əlaqədar "Seçicilərin Təşəbbüs Qrupu"nu yaradıblar.**

Təşəbbüs Qrupunda təmsil olunan ziyalılar və ictimaiyyət nümayəndələri çıxış edərək Azay Quliyevin deputatlığa namizədliyini dəstəkləyərək onun ötən on ildə uğurlu deputatlıq fəaliyyəti, ölkənin ictimai-siyasi həyatında yaxından iştirakı, Azərbaycanın milli maraqlarının beynəlxalq aləmdə müdafiəsi istiqamətində gördüyü işlərdən danışıblar.

İclasda çıxış edən millət vəkili Azay Quliyev TQ-nin üzvlərinə təşəkkürünü bildirib və göstərilən etimadı doğrultmaq üçün bütün gücü ilə çalışacağını deyib. Millət vəkili vəzifəsinin böyük məsuliyyət olduğunu bildirən A.Quliyev növbəti dəfə seçicilərin etimadını qazanacağı halda indiyədək olduğu kimi bundan sonra da yalnız bu tribunadan vətəndaşların hüquq və mənafelərinin qorunması, milli maraqlarımızın təminatına və ölkəmizin inkişafına töhfə vermək üçün istifadə edəcəyini vurğulayıb.

Toplantıda Azay Quliyevin dəstəkləmək üçün yaradılan təşəbbüs qrupunun adının "Gələcəyə inamla" olması yekdilliklə qəbul edilib. Daha sonra müvafiq sənədlərin DSK-ya təqdim olunması üçün səlahiyyətli nümayəndələr seçilib.

## ABŞ səfiri bu dəfə Sabir Rüstəmxanlı ilə görüşdü

**Sentyabrın 17-də Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) qərargahında partiya sədri, millət vəkili Sabir Rüstəmxanlı ABŞ-ın Azərbaycandakı səfiri Robert Frenses Sekutanı qəbul edib.**

Lent.az-ın verdiyi məlumata görə, görüşdə Azərbaycanda ictimai-siyasi vəziyyət, Qarabağ münaqişəsi, noyabr ayında keçiriləcək parlament seçkiləri, insan haqları və Azərbaycan-ABŞ münasibətləri müzakirə edilib.

Eyni zamanda səfirə VHP-nin fəaliyyəti və seçkilərə qatılması, seçki hazırlığı barədə məlumat verilib.

Xatırladaq ki, bundan əvvəl ABŞ səfiri digər partiya rəhbərləri ilə də görüşüb.

## "Meydan" TV-nin müxbiri tapıldı

**Sentyabrın 16-da yoxa çıxan "Meydan" TV-nin əməkdaşı Şirin Abbasov DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin girov götürmə və hədə-qorxu ilə tələb etmə cinayətləri üzrə mübarizə şöbəsində saxlanılır.**

Bu barədə AzadlıqRadiosuna vəkil Elçin Sadıqov məlumat verib.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov bundan əvvəl AzadlıqRadiosuna Şirin Abbasovun yoxa çıxmasından məlumatsız olduğunu demişdi: "Əgər o, evindən çıxıb geri dönməyibsə, valideynləri və qohumları ərazi polis orqanlarına müraciət etməli, polis isə axtarışa başlamalıdır".

Sentyabrın 3-də Şirin Abbasov Mingəçevir hadisələri ilə bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsində dindirilmişdi.

"Meydan" TV jurnalistin saxlandığını ehtimal edir.

Sentyabrın 16-da "Meydan" TV ilə əməkdaşlıq edən iki xanım jurnalist - Aytac Əhmədova və rəfiqəsi də DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılıb, saat 21:00 radələrində sərbəst buraxılıblar.

Onlara "Meydan" TV-nin fəaliyyəti ilə bağlı suallar verilib. Televiziyanın rəhbərliyi bildirir ki, Mingəçevir hadisələri zamanı polis bölməsində ölmüş Bəhruz Hacıyevin morqdakı videosunu kimin və necə çəkməsi haqda soruşublar.

## "O dünyaya vəzifə aparan deyilik ki..."

**"Bəzən deyirlər ki, rektor 5 il işləməlidir və yaxud parlamentdə 5-10 il işlədi, bəsdir. Bunun əleyhinəyəm. İnsan işlədikcə püxtələşir".**

Bunu Bakı Dövlət Universitetinin (BDU) rektoru, deputat Abel Məhərrəmov Milli Məclisin Elm və Təhsil komitəsinin iclasında deyib.

A.Məhərrəmovun sözlərinə görə, deputat universiteti, deputat ali məktəbi yoxdur ki, adamı hazırlayıb deputat edəsən: "Hərəmiz bir sahədəyik, burada ümumi qanunvericilik müstəvisində birləşirik. Kimin təcrübəsi çoxdursa, o, deputatlığa daha çox layiqdir. Köhnə korpusun əksəriyyəti deputatlığa namizəd olaraq qalır və mən tam əminəm ki, işlərimiz əvvəlkindən daha yaxşı olacaq. Çünki hər beş ildən bir adam daha da təkmilləşir. Biri var 5 il oxuyasan, biri var 15 il, 20 il oxuyasan. Mən həmişə tələbələrlə söhbət edəndə onlardan neçənci kursda olduqlarını soruşuram. Misal üçün, deyirlər 3-cü. Deyirəm, mən də 43-cü kursdayam, hələ mən də oxuyuram".

Rektorun fikrincə, təbii ki, deputatlar nə qədər çox oxusalar, o qədər yaxşı olar: "Təbii ki, parlamentdə yenilərı də olacaq. Mən yeni tərkibə uğurlar arzu edirəm. Vəzifə adamın alnına yazılmayıb ki. Vəzifə ömürlük də ola bilməz, o dünyaya vəzifə aparan deyilik ki... Vəzifə bir gün gəlir, bir gün də getməlidir, burada heç bir narahatlıq yoxdur. İnsan rektor işini apara bilsək, böyük məsələdir".



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Döyülərək öldürülən jurnalistin 40 mərasimi keçirildi

## Səhiyyə Nazirliyi Rasim Əliyevin həkimləri ilə bağlı komissiya yaradıb; **jurnalistin atası:** "Barışıq mümkün deyil"

**Sentyabrın 17-də döyülərək öldürülən jurnalist Rasim Əliyevin 40 mərasimi keçirilib. Mərasimdə Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər və Müsavat Partiyasının başqanı Arif Hacılı da iştirak edib.**

**Jurnalist Rasim Əliyevin atası Məmmədəli Əliyev "Yeni Müsavat"a açıqlama verib.**

**Məmmədəli Əliyev "Qəbələ" futbol klubunun hazırda həbsdə olan kapitanı Cavid Hüseynovun ailə üzvlərinin onlarla görüşmək istədiklərini, lakin buna etiraz etdiklərini bildirib: "Cavid Hüseynovun ailəsindən birbaşa bizimlə danışan olmayıb. Cəbrayıldan olan qohumlar, yaxınlar vasitəsilə bizə belə bir xəbər çatıb. Amma biz qəbul etməmişik. Barışıq mümkün deyil".**



Rasim Əliyevin atası günahkarların cəzalandırılmasını tələb etdiklərini qeyd edib.

Həkimlərlə bağlı heç bir tədbir görülmədiyini deyən M.Əliyev araşdırma üçün Səhiyyə Nazirliyi tərəfindən komissiyanın yaradıldığını bildirib: "İşi araşdıran müstəntiq bizə bildirdi ki, baş prokuror tərəfindən Səhiyyə Nazirliyinə müraciət olunub. Səhiyyə Nazirliyində xüsusi komissiya yaradılıb. Həkimlər haqda rəy verilməlidir. Bundan sonra həkimlərin günahının olub-olmaması araşdırılacaq və onlar barəsində tədbir görüləcək".

Xatırladaq ki, avqustun 8-də jurnalist Rasim Əliyev Bayıl qəsəbəsində bir qrup şəxs tərəfindən döyülərək çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilmişdi. Jurnalist aldığı xəsarətlərdən avqustun 9-da orada vəfat edib.

Jurnalist ölümündən əvvəl onu döyənlərin "Qəbələ" futbol klubunun kapitanı Cavid Hüseynovun qohumları olduğunu deyib.

İlkin araşdırmalarla müəyyən edilib ki, 1988-ci ildə Cəbrayıl rayonunda anadan olmuş Cavid Hüseynov avqustun 6-da "Qəbələ" futbol klubunun heyətində Kipr Respublikasının "Apollon" futbol klubu ilə Bakı şəhərində keçirilən oyunda iştirakından sonra jurnalistlərin suallarını cavablandırarkən yol verdiyi hərəkətlərə görə şəxsi facebook səhifəsində tənqidi fikirlər yazmış ann.tv-nin videoreportyoru Rasim Əliyevə zəng vuraraq ondan təkzib verməyi tələb edib.

Bundan sonra C.Hüseynovun bibisi oğlu, 1994-cü ildə Bakı şəhərində anadan olmuş Elşən İsmayılov da R.Əliyevə zəng vuraraq təkzib verməsini tələb edib və bu zəmində aralarında mübahisə yaranıb. Nəticədə Elşən İsmayılov R.Əliyevdən qisas almaq məqsədilə özünə yaxın olan Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevdən ibarət qrup yaradaraq avqustun 8-də saat 16 radələrində Bayıl qəsəbəsində "Bayıl market" mağazasının qarşısında onunla görüşüb. Onlar R.Əliyevə əl və ayaq zərbələri ilə daxili orqanlarının zədələnməsinə səbəb olan çoxsaylı ağır dərəcəli bədən xəsarətləri yetirib və hadisə yerindən qaçıblar.







R.Əliyev Bakı Kliniki Tibbi Mərkəzə çatdırılıb. Jurnalistin vəziyyətinin yaxşı olduğu deyilsə də o, daxili qanaxmadan dünyasını dəyişib.

İstintaq zamanı R.Əliyevə məxsus "iPhone-5" markalı mobil telefonun cinayətin iştirakçısı Arif Əliyev tərəfindən sındırılıb yaşadığı Bakıxanov qəsəbəsində yerləşən "Arzu" şadlıq sarayının yaxınlığındakı zibilliyə atılması müəyyən olunub və maddi sübut kimi götürülərək cinayət işinə əlavə edilib.

E.İsmayılov, S.Mustafayev, C.Məmmədov, K.Mədətov və A.Əliyev Cinayət Məcəlləsinin 126.3-cü maddəsində nəzərdə tutulan əməli törətməkdə təqsirli bilinib və barələrində məhkəmə tərəfindən həbs-qətimkan tədbiri seçilib.

İstintaqın hazırkı mərhələsində Cavid Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Cinayətin C.Hüseynovun təhriki ilə törədilməsi fərziyyəsi də istintaq-əməliyyat qrupu tərəfindən araşdırılır.

❑ **İlkin MURADOV**

# Əfv Komissiyasının üzvü nə "hə", nə "yox" dedi

## **Məlahət İbrahimqızı:** "Əfv Məsələləri Komissiyası məhkumlar üçün var gücü ilə çalışır"



Məlahət İbrahimqızı

**Hər bayram öncəsi cəmiyyətdə məhkumların əfv ediləcəyi ilə bağlı ümidlər artır. Bu sərəncamı isə ən çox gözləyənlər təbii ki, məhkum ailələridir. Qurban bayramının yaxınlaşması əfv olacağı ilə bağlı ümidləri yenidən artırıb.**

Konstitusiyaya görə əfv sərəncamını imzalamaq prezidentin müstəsna hüququdur. Lakin Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası adlı qurum da fəaliyyət göstərir. Məhz bu qurum məhkumların siyahılarını hazırlayaraq, ölkə başçısına təqdim edir. Onların hazırladıqları siyahı tövsiyə xarakteri daşıyır. Komissiyanın sədri Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevdir.

Bəs Əfv Komissiyası necə fəaliyyət göstərir?

**Əfv Məsələləri Komissiyasının fəaliyyəti barədə "Yeni Müsavat"a adıçəkilən komissiyanın üzvü, deputat Məlahət İbrahimqızı danışıb.** O bildirib ki, bayramlardan asılı olmayaraq, komissiya daim fəaliyyət göstərir: "Bizə müntəzəm olaraq müraciətlər daxil olur. Bu dövlət komissiyasının özünün xüsusi əsasnaməsi var. Əsasnaməyə uyğun olaraq, komissiya üzvləri öz işlərini qururlar. Bizə məhkumların qohumları, ailə üzvləri tərəfindən müntəzəm şəkildə ərizələr daxil olur. Daha sonra məhkumluqla bağlı sənədləri toplayırıq və araşdırmalara başlayırıq. Məhkumun cəzaçəkmə müəssisəsində olduğu dövrdə özünü necə aparması, törətdiyi cinayət əməlindən peşmançılığı və digər bu kimi faktlar toplanılır. Eyni zamanda əsasnamənin prinsiplərinə uyğun olaraq, məhkum ona verilən cəzanın müəyyən bir hissəsini çəkməlidir. Yüngül cəza ilə ağır cəza verilənə eyni cür yanaşılmır. Sonda verilən hökmün surətini əldə edirik. Tam material hazırlandıqdan sonra Prezident Administrasiyasında əfv məsələlərini tənzimləyən dövlət sektorunda məhkumlarla bağlı müraciətlər bir daha təhlil olunur. Eyni zamanda məhkumun özünün ərizəsi də tələb edilir. Əgər məhkum törətdiyi əməlin peşmançılığını keçirib əfv olunmasını istəmirsə, onun məsələsinə baxılmır. Hər bir insan kiməsə toxunan zaman belə, ondan üzr istəyir. Məsələyə bu aspektdən yanaşdıqda, cəza törədən məhkum peşmanlığını ifadə edən və əfv olunmağını bildirən ərizə də yazmalıdır".

**M. İbrahimqızı bildirib ki, insanlarda elə təəssürat yaranıb ki, sanki komissiya bayramdan-bayrama işləyir:** "Ancaq bu belə deyil. Bizim fəaliyyətimiz daimidir və iclaslarımız da müntəzəm olaraq keçirilir. Sadəcə olaraq, misal üçün, üç məhkumun ərizəsinə görə iclas keçirmirik. Komissiyanın üzvləri tanınmış adamlardır, güc strukturlarının əməkdaşlarıdır. Müəyyən sayda ərizə toplandıqdan sonra iclasın vaxtı müəyyən olunur və keçirilir. İlin demək olar ki, hər ayı ölkəmizdə bir əlamətdar hadisə olur. Bayramlarımız çoxdur. Mətbuatda elə formalaşıb ki, guya komissiya ancaq bayramlarda işləyir. Məsələn, bu ay Qurban bayramıdır, gələn ay müstəqillik günü gəlir. Vətəndaşlara deyə bilmərik ki, bizə ancaq bayramlarda müraciət edin. Onlar istədikləri vaxt müraciət edirlər. Biz də həmin gün müraciətə baxırıq. Bu çox həssas məsələdir. Məhkumu gözləyən onlarla yaxını, qohumu var. Bütün bunları nəzərə alırıq. Həm də dövlətimizin qanununa uyğun olaraq, vətəndaşların müraciətinə baxılmalıdır. Müraciət alındıqdan sonra onu bizə ünvanlayana cavab da göndəririk. Bir məqam da var ki, məhkum əfv olunan zaman, onun zərər verdiyi qarşı tərəf də buna razı olsun. Ən vacib tərəf də elə budur ki, zərərçəkmiş cinayətkarın əfv olunmasına etiraz etməsin. Bu çox önəmli məqamdır. Hətta qarşı tərəf yazılı qaydada öz razılığını bildirməlidir və bu, notariat kontorları tərəfindən təsdiqlənməlidir. Biz hər il maksimum dərəcədə çalışırıq ki, daha çox məhkuma şamil olunan əfv fərmanı imzalansın. Möhtərəm prezidentimiz də hər zaman çalışır ki, insanlara humanist yanaşsın. Konkret deyə bilmərəm ki, bugünlərdə əfv fərmanı imzalanacaq. Çünki bu bizim səlahiyyətimizə daxil deyil".

**İnsan Haqları üzrə İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onlar da məhkumların siyahısını hazırlayıblar:** "Biz də məhkumların siyahısını hazırlayıb, Əfv Məsələləri Komissiyasına göndərmişik. Ümid edirik ki, prezident Qurban bayramı ərəfəsində əfv sərəncamı imzalayar və bizim siyahıdakı məhkumların da adı orada olar".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015



Natiq Miri

# "Qərb seçkinin nəticələrini tanımamaq üçün zəmin hazırlayır"

## Natiq Miri: "Bu taktika sonda hakimiyyətin özünün, həmçinin ölkəmizin zərərinə işləyəcək"

**ATƏT-in və Avropa Parlamentinin Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə etməkdən imtina etməsi, Avropa Parlamentinin sərt qətnaməsi, Azərbaycan hakimiyyətinin isə buna sərt cavab verməsi artıq seçki prosesinə öz təsirini göstərməyə başlayıb.**

Tanınmış müxalifət partiyalarından biri seçkidən geri çəkilib, digərləri isə qarşıdakı dönəmdə bu addımı ata biləcəklərinin anonsunu veriblər.

Artıq mediada, sosial şəbəkələrdə və siyasi kuluarlarda "seçkinin taleyi həll olunub" deyənlərin sayı artıb. Bəzi siyasi ekspertlərin fikrincə, seçkinin boykotunu adıçəkilən beynəlxalq təşkilatlar təşkil edir ki, hakimiyyətə seçkidən sonra təzyiq üçün əlavə arqument əldə etsinlər. Bəzi təhlilçilər isə düşünür ki, ATƏT, Avropa Parlamenti kimi beynəlxalq təşkilatların seçkinin müşahidəçiliyindən imtina etməsi, müxalifətin seçkidən kənarlaşması əslində hakimiyyətə sərf edir. Belə vəziyyətdə hakimiyyət seçkini sakit və rahat şəkildə istədiyi ssenari ilə keçirə bilmək imkanı qazanır.

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri, politoloq Natiq Miri isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda seçkilər Rusiya modeli ilə keçiriləcək. Müşahidə olunan gərginlik də bununla bağlıdır. Qərb isə Rusiya modeli ilə keçirilən seçkinin nəticələrini tanımamaq üçün zəmin hazırlayır:** "Bu gün Azərbaycanda baş verən proseslər birbaşa Rusiya faktoru ilə bağlıdır və artıq bəlli oldu ki, növbəti parlament seçkiləri də Rusiya modeli üzrə gedəcək. ADP-nin boykota getməsinin tək səbəbi də budur. Digər müxalif partiyalar da buna görə seçkidən geri çəkilmək istədiklərini bəyan ediblər. Avropa Parlamentinin məlum qətnaməsinin də məhz indi qəbul edilməsinin də səbəbi də parlament seçkiləridir. Avropa İttifaqı bu qətnamə ilə hakimiyyətə təzyiq etmək istəyirdi ki, ən azından gələcək parlamentdə müəyyən nisbətdə demokratik qüvvələr iştirak etsin, seçki bu dəfə Rusiya modeli ilə keçirilməsin. Ancaq belə görünür ki, hakimiyyət buna getmədi."

**Politoloqun sözlərinə görə, hakimiyyətdə nəzəri olaraq belə bir illüziya yarana bilər ki, ATƏT, Avropa Parlamenti kimi qurumların seçkiləri müşahidəçilikdən imtinası, müxalifətin isə seçkidən geri çəkilməsi onun xeyrinədir. Hətta mümkündür ki, belə bir vəziyyətin yaranması üçün iqtidarda əvvəldən plan olub. Lakin belədirsə çox yanlış taktikadır:** "Hakimiyyətin məhz belə bir planla hərəkət etdiyi hiss edilir. Ancaq bu taktika sonda hakimiyyətin özünün, həmçinin ölkəmizin zərərinə işləyəcək. Artıq indidən ATƏT, Avropa Parlamenti-Qərb dünyası 1 noyabrda formalaşacaq parlamentin qeyri-legitim olacağı barədə fikir yarada bilib, bu mövqeyi rəsmi mövqeyə çevirmək üçün hazırlıq görüb, zəmin yaradıb. Belə vəziyyətdə Azərbaycan hakimiyyəti üçün işləmək çox çətin olacaq. Qərb bunun üçün zəmin hazırlayır. Gərək hakimiyyət də bunu nəzərə alsın və qeyd olunanların baş verməməsi üçün addımlar atılsın".

❑ E.SEYİDAĞA

# "Müharibə başlasa, Rusiya Ermənistanın tərəfini tutacaq"

## Heydər Camal: "Azərbaycan Rusiya ilə yaxınlaşmaqla Rusiyanın problemlərini bölüşmək riskinə gedir..."

**"Rusiya-Azərbaycan münasibətləri bu gün ciddi dəyişikliyə məruz qalıb. Bu dəyişikliyin əlamətlərindən biri Xəzərdəki birgə təlimlərdisə, digəri Qəbələdə yeni RLS tikintisi perspektivi ilə bağlıdır". Musavat.com-un məlumatına görə, bu sözləri minval.az saytına müsahibəsində Rusiya İslam Komitəsinin sədri, politoloq Heydər Camal bildirib.**



Heydər Camal

Onun sözlərinə görə, Rusiya xarici işlər naziri Sergey Lavrovin Azərbaycana son səfəri o anlama gəlir ki, Kreml Bakını yenidən Avrasiya İqtisadi Birliyinə cəlb eləmək istəyir: "Ancaq bu gün Rusiyanın izolyasiyası, neftin qiymətinin kəskin düşməsi və rublun zəifləməsi şəraitində belə bir təklif az cəzbedici görünür, nəinki ondan qabaq. Düşünmürəm ki, məhz indi Azərbaycan rəhbərliyi məsələdə öz mövqeyini dəyişsin. Avrasiya Birliyinə qoşulmaqla neft bahalaşmayacaq, başağrısı azalmayacaq, investisiya mühiti yaxşılaşmayacaq... Azərbaycan nəzərə almalıdır ki, Rusiya ilə yaxınlaşmaqla öz problemləri həll etməmək bir yana, üstəlik, Rusiyanın problemlərini bölüşmək riskinə gedir".

**Bununla belə, ekspert hesab edir ki, Qərblə Rusiya arasında seçim - yalançı seçimdir, çünki:** "Qərb Dağlıq Qarabağ məsələsində beynəlxalq hüququn təsbit olunmasına kömək göstərmədiyi kimi, Rusiya da öz erməni müttəfiqindən heç vaxt imtina etməyəcək və Azərbaycana kömək göstərməyəcək".

**Heydər Camala görə, Azərbaycan İslam dünyasında yüksək dərəcəli yeni oyunçu tipində özünü təsdiqləməlidir:** "Sovet respublikası statusunun irsindən qurtulmaq və necə deyərlər, arxasında 1,5 milyard müsəlman olan ölkəyə çevrilmək lazımdır. Bu gün ABŞ ikinci minilliyin əvvəlləri ilə müqayisədə zəifdir. Ona görə də o, artıq əvvəlki tək bütün proseslərə və intriqalara qarışa bilmir. Amerikanlar, məsələn, Minsk danışıqları stolu arxasında yoxdurlar *(Ukrayna böhranından söhbət gedir - red.)* Türkiyəyə qarşı da ABŞ pərdə arxasından qəsd təşkil edir - bura Rusiyanı, İranı, Səudiyyə Ərəbistanını və İsraili cəlb etməyə çalışmaqla. ABŞ Ankara ilə birbaşa qarşıdurmaya gedə bilməz, çünki Türkiyə NATO-nun üzvüdür, tərəfdaşdır. Ancaq bu gün Amerikanın istədiyi - Ərdoğan rejiminin çöküşü və Türkiyənin parçalanmasıdır. Bu barədə hələ 27 il öncə açıq şəkildə Devid Rokfeller bildirib. Azərbaycan ABŞ-ın Moskvanın da dəstəklədiyi anti-Türkiyə oyununa qoşulmamalıdır".

**"Amerikanın istədiyi - Ərdoğan rejiminin çöküşü və Türkiyənin parçalanmasıdır"**

**Politoloq yeni Qarabağ müharibəsi ehtimalının həmişə olduğuna xüsusi diqqət yönəldib:** "Bəşəriyyət 3-cü Dünya müharibəsinin astanasındadır. Bu gün xəritədə ondan çox sayda qaynar nöqtə var ki, sabah böyük müharibəyə vəsilə ola bilər... Belə informasiyalar var ki, Ermənistan hələ sovet dönəmindən miras kimi nüvə başlıqlarına malikdir - hansıları ki, o, Rusiya ərazisinə qaytarmayıb və özünün Msamor AES-i vasitəsilə mütəmadi təzələyir. Erməni nüvə fizikləri sovet elmi potensialının bir hissəsidir. Qarabağı geri qaytarmaq barədə düşünərkən biz bu məqamı da ciddiyə almaya bilmərik".

**Heydər Camal Qarabağ müharibəsində ABŞ və Rusiyanın özünü necə aparacağı ilə bağlı sualı belə cavablandırıb:** "Onların özünü necə aparacağı Ukrayna nümunəsindən görünür. Qərb özünü elə göstərir ki, Ukraynanı dəstəkləyir və Rusiyaya qarşı sanksiyalar tətbiq edir. Bu, Rusiyanın vəziyyətini pisləşdirir, ancaq Ukraynaya az kömək edir.

**"Belə informasiyalar var ki, Ermənistan hələ sovet dönəmindən miras kimi nüvə başlıqlarına malikdir"**

Qarabağda müharibə başlasa, Rusiya Ermənistanın tərəfini tutacaq, Qərb isə özünü elə aparacaq ki, guya Bakının yanındadır".

❑ Siyasət şöbəsi

# Hakimiyyət nazir övladlarına niyə etimad göstərmədi?

## Tural Abbaslı: "Etimad göstərilsəydi belə, ciddi dəyişiklik olmayacaqdı, çünki hakimiyyətə xidmət edənlərin yaşı önəmli deyil..."

**Noyabrın 1-də keçiriləcək parlament seçkilərində nazir övladlarının namizəd olmayacağı indidən qətiləşib. Aylar öncədən onların namizəd olacağı iddiaları səsləndirilsə də, Yeni Azərbaycan Partiyasının açıqladığı siyahıda nazir övladlarının adları yer almadı.**



Doğrudur, hakimiyyətin Milli Məclisin tərkibini gəncləşdirməyə meylli olduğu siyahıdan açıq şəkildə görünür. Orada kifayət qədər gəncin adı var. Seçkinin nəticəsindən asılı olmayaraq, bu siyasətin ilk çalarları görünməkdədir. Amma o da faktdır ki, iqtidarın planında nazir övladlarının parlamentdə təmsil olunmasına "yaşıl işıq" yandırılmayıb.

Parlament seçkilərində əsasən gənclərdən təmsil olunmuş namizədlərlə çıxış edən "AĞ blok"un təmsilçilərindən olan, 21 saylı Nəsimi dairəsindən iddiasını irəli sürən Tural Abbaslıdan iqtidarın bu dəfə də gəncləşmə siyasətinə münasibət aldıq. **O, iqtidarın dəyişməyə meylli olmadığını söylədi:** "Ortada 22 illik bir rejim var. Eyni qayda ilə ölkəni idarə edən hakimiyyət, bu qaydalarla davam etməyə qərar verib. Şayiələr var idi ki, parlament gəncləşdiriləcək. Təkcə nazir övladları deyil, hakimiyyətə yaxın olan, xaricdə təhsil almış, səviyyəcə indiki deputatlardan yüksəkdə olan gənclərdən ibarət bir Milli Məclisin olacağı deyilirdi. Hər kəsdə ümid var idi ki, Avropanın gözündən pərdə asmaq üçün belə addım atılacaq. Açığı, iqtidar prezident seçkilərinə qədər Qərbin təzyiqlərindən yaxa qurtarmaq siyasəti yürüdəcək. Bu baxımdan düşünülmüş şəkildə hakimiyyət gənclərinin cəmiyyətdə təbliğatı gedirdi. Amma iqtidar qalib komandanı dəyişməmək qərarı verdi. Əgər belə olardısa, nə dəyişəcəkdi? Hesab etmirəm ki, ciddi bir dəyişiklik olardı. Çünki hakimiyyətə xidmət edənlərin yaşı bir o qədər önəmli olmur. Onların başı önəmli olur. Çünki iqtidarda bir adam düşünür, hamı da ona uyğun hərəkət edir. Sadəcə, ad dəyişiklikləri ola bilər. Parlament bütünlüklə gəncləşsəydi belə, atılan addımlar eyni olacaqdı. Şəkil dəyişikliyi ola bilərdi".

**T.Abbaslı hesab edir ki, hakimiyyətin gənclərə önəm verseydi belə, daxildə xüsusi bir narazılıqla qarşılanmayacaqdı:** "Hakimiyyət daxilində qruplaşmaların olması hər kəsə məlumdur. Birinci şəxsin rəğbətini qazanmaq üçün mübarizə gedir. Amma inanmıram ki, bu mübarizə övladlarının deputat olmamasından doğan narazılıq səviyyəsinə enərdi. Parlamentdə 125 yer var. Deputatlar sırasında bütün qruplaşmara yaxın şəxslər var. Üzümüzə gələn seçkidən sonra da bu, belə olacaq. Çünki hakimiyyət üçün narazı kəsimi nəzarətdə saxlamaq şərtdir. Ona görə də hər qrupdan müəyyən say baxımından kimin seçilməsinin inanın ki, iqtidar üçün önəmi yoxdur".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015

## Nəqliyyat nazirinin niyə görünməməsi ilə bağlı sensasion iddia

**Artıq 2 aya yaxındır ki, nəqliyyat naziri Ziya Məmmədov rəsmi tədbirlərdə iştirak etmir. İlk dəfə bu müəmma avqustun 3-də Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu - "Şixezi (Çin)-Dostık-Aktau-Ələt limanı" üzrə hərəkət edən "Nomand ekspress" ilk sınaq konteyner qatarının Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatması ilə bağlı tədbirdə diqqəti çəkdi.**




İlk konteyner qatarının Bakıya çatması ilə əlaqədar keçirilən və baş nazirin müavini Abid Şərifov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Qazaxıstanın, Gürcüstanın dəmir yolları qurumlarının, Bakı, Batumi, Aktau limanlarının, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərləri, diplomatik korpusun nümayəndələri və digər rəsmi şəxslərin qatıldığı qarşılanma mərasimində nəqliyyat nazirinin olmaması suallar yaratdı. Mərasimdə Z. Məmmədovu adətən dövlət tədbirlərindən kənarda saxlanılan müavini Arif Əsgərov təmsil edirdi. Qeyd edək ki, adı müxtəlif qalmaqallarda hallanan "Azərbaycan Dəmir Yolları" QSC-nin keçmiş sədri Arif Əsgərovun nəqliyyat nazirinin müavini vəzifəsinə təyin olunduqdan sonra işə çıxmadığı və hətta nazirlikdə kabinetinin müəyyən edilmədiyi barədə mətbuatda məlumatlar dərc olunmuşdu. A.Əsgərovun həmin tədbirdə iştirakı və hətta çıxış etməsinin də daha çox məcburiyyətdən irəli gəldiyi deyilirdi.

# Ziya Məmmədov izolyasiyada - ...«işə çıxmır»

### Avqustun əvvəlindən prezidentin müşavirəsində və digər rəsmi tədbirlərdə Ziya Məmmədov iştirak etmir; onu müavinlərinin təmsil etməsi haqlı suallar yaradıb; təşkilatına xitam verilmiş nazir oğlu bir neçə gün əvvəl Amerikaya gedib...

Amma bundan sonra Z.Məmmədov müəmmasına daha biri əlavə olundu. Prezident İlham Əliyevin iyulun 13-də keçirdiyi Nazirlər Kabinetinin geniş müşavirəsində nəqliyyat naziri iştirak etmirdi. Bu dəfə Z.Məmmədovun məzuniyyətdə ola biləcəyi ehtimalı vardı və bu səbəbdən də bu faktın üzərində çox dayanılmadı. Çünki Avropa Oyunlarından sonra bir sıra nazirlər məzuniyyətə getmişdi və müşavirədə baş nazir Artur Rasizadə ilə yanaşı, vergilər naziri Fazil Məmmədov da iştirak etmirdi. Amma sonrakı günlərdə prezident rayonlarda bir neçə avtomobil yolunun açılışında iştirak etsə də, nəqliyyat naziri yenə gözə dəymədi.

Z.Məmmədovun Bakı-Sumqayıt elektrik qatarının açılışında da olmaması nəqliyyat naziri ilə bağlı sualları daha da artırdı. Media bunu artıq nazirin yaxın zamanlarda işdən çıxarılacağının ciddi siqnalı kimi izah etdi. Nəhayət, üç gün əvvəl Çexiya prezidentinin Bakıya səfərində hökumət üzvlərinin arasında olmaması Z.Məmmədovla bağlı məsələnin çox ciddi olduğunu sübut etdi. Naziri bu dəfə onun başqa bir müavini Musa Pənahov təmsil edirdi və o, Cavid Qurbanovla yanaşı oturmuşdu...

Məlumatlara görə, sentyabrın 1-də baş nazir Artur Rəsizadənin sədrliyi ilə Nazirlər Kabinetində 2016-cı il üzrə dövlət büdcəsinin müzakirəsində də nəqliyyat naziri iştirak etməyib. Sentyabrın 16-da Nəqliyyat Nazirliyində Beynəlxalq Avtomobil daşımaları üzrə Azərbaycan-Belarus Qarışıq Komissiyasının növbəti iclası keçirilib. Belarus Nəqliyyat və Kommunikasiya Nazirliyinin idarə rəisi Sergey Dubinanın rəhbərlik etdiyi nümayəndə heyətini də Z.Məmmədov yox, Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Elnur Abdullayev qəbul edib.

Qeyd edək ki, nazirin görünməməsi müddətdə prezidentin imzaladığı fərmanla Z. Məmmədov taksi minik avtomobilləri ilə sərnişin daşınmasına lisenziya verilməsi kimi külli miqdarda gəlirli bir sahəni faktiki itirib. Nazirin yaxın ətrafına məxsus "Transqeyt" MMC-nin marşrut avtobusları şəhər nəqliyyatından çıxarılıb. Oğlunun rəhbərlik etdiyi Azərbaycan-Amerika Alyansı fəaliyyətini dayandırıb, Məmmədovlara məxsus "Rixos Quba" hoteli və hətta sənədlərlə onların mülkiyyəti hesab olunan Bakı Beynəlxalq Avtovağzalı da əllərində çıxıb. Nazirin qardaşı Elton Məmmədovun isə deputat seçkilərində iştirak edib-etməyəcəyi hələ məlum deyil. Yeri gəlmişkən, aldığımız məlumata görə, Anar Məmmədov bir neçə gün əvvəl Amerikaya gedib.

Beləliklə, sıraladığımız faktlar nəqliyyat nazirinin hökumətdən faktiki izolyasiya olunduğunu göstərir.

**"Nəqliyyat naziri Ziya Məmmədov növbəti əmək məzuniyyətinə gedib". Bu haqda modern.az saytına nazirliyin mətbuat katibi Namiq Həsənov məlumat verib. O, mətbuat nümayəndələrinə müraciət də edib:**

"Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri kimi mətbuatın "Ziya Məmmədov işə gəlmir", "Tədbirlərə qatılmır" kimi fikirlərinə cavab olaraq bəyan edirəm ki, Ziya Məmmədov sentyabrın 16-dan oktyabr ayının 22-nə qədər növbəti əmək məzuniyyətindədir.

Qoy, bütün kütləvi informasiya vasitələri bilsinlər ki, bu müddətdə nazirin işə çıxmamaq haqqı-hüququ var, yəni sensasiya deyil".

**❑ "Yeni Müsavat"**

## Beynəlxalq Bank Avropadan 50 milyon avro borc aldı




**Sentyabrın 16-da Lüksemburq şəhərində Avropa İnvestisiya Bankı ilə Azərbaycan Beynəlxalq Bankı arasında 50 milyon avro məbləğində kredit müqaviləsi imzalanıb. Beynəlxalq Bankdan verilən məlumata görə, Azərbaycanda kiçik və orta sahibkarlığa dəstək xarakteri daşıyan vəsait bu sektorda prioritet əhəmiyyətə malik biznes layihələrinin maliyyələşdirilməsinə yönələcək.**

Bu kredit müqaviləsi Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə vəsaitlərinə çıxış imkanlarını genişləndirəcək. Xüsusilə qeyri-neft sektoruna aid sənaye və xidmət sahələri bu imkandan geniş faydalana biləcəklər. Cəlb edilmiş kredit Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə kömək göstərməklə yanaşı, kiçik və orta biznes sektorunda Azərbaycan Beynəlxalq Bankının mövqeyini daha da gücləndirəcək.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi, ümumdaxili məhsul istehsalında kiçik və orta sahibkarlığın payının artırılması Azərbaycan dövlətinin həyata keçirdiyi strateji inkişaf siyasətinin əsas istiqamətlərindəndir.

Bu baxımdan, Azərbaycan Beynəlxalq Bankının Avropa İnvestisiya Bankı ilə imzaladığı kredit müqaviləsi bu siyasətə töhfə verməklə, yerlərdə biznes layihələrinin uğurla icrasına, yeni iş yerlərinin açılmasına, əhalinin maddi rifah halının daha da yüksəlməsinə kömək göstərəcək.

Qeyd edək ki, Avropa İnvestisiya Bankının səhmdarları Avropa İttifaqına üzv ölkələrdir. Avropa İnvestisiya Bankı bütün dünyada ən böyük beynəlxalq ümumi kredit qurumu kimi tanınır.

## Samir Şərifov bədbin proqnoz verdi

**Neftin ucuzlaşması və geosiyasi gərginlik Azərbaycanın beynəlxalq kredit reytinqinin aşağı salınmasına səbəb ola bilər. Bunu "Azərbaycan Televiziyasının" (AzTV) efirində maliyyə naziri Samir Şərifov deyib.**



S.Şərifov deyib ki, bu, bir ehtimaldır və hər şeyi gələcəkdə cərəyan edən proseslər göstərəcək: "Neftin ucuzlaşmasına baxmayaraq dünyanın üç aparıcı beynəlxalq reytinq agentliyi olan "Standard&Poor's", "Fitch" və "Moody's" Azərbaycanın beynəlxalq kredit reytinqini əvvəlki, yəni "B-" səviyyəsində saxlayıb.

Bildiyiniz kimi, bu üç agentlik öz reytinqlərini tam müstəqil qaydada tərtib edir. Nəzərinizə çatdırım ki, reytinq tərtib olunarkən neftin ucuzlaşması ilə yanaşı hökumətin atdığı addımlar da nəzərə alınır.

Enerjidaşıyıcılarının ucuzlaşmasına baxmayaraq, bizim hökumət zəruri tədbirlər görüb ki, bu amil bizim beynəlxalq kredit reytinqimizin qorunmasına səbəb olub. Lakin danılmaz faktdır ki, neft ucuzlaşır və təbii olaraq bu hal bizim gəlirlərimizə təsir edir. Bununla yanaşı, geosiyasi gərginlik müşahidə olunmaqdadır ki, bu iki amil bizim reytinqimizə mənfi təsir edə biləcək amildir".

# Sonuncu dərs...



**Hüseynbala SƏLİMOV**

**Hətta Rusiyaya qarşı loyallığı ilə seçilən insanlar da bu ölkənin uçurumun astanasında olduğunu deyirlər. Bunu ona görə deyirəm ki, bizim sözlərimizə diqqət yetirməyən hakimiyyət təmsilçiləri heç olmasa, belə azərbaycanlıların dediklərini nəzərə alsınlar...**

Mənə elə gəlir ki, Avropa ilə münasibətləri soyutmağa Azərbaycanı Rusiya təhrik edir. Bakı rəsmiləri Rusiya siyasətçilərinin və diplomatlarının dediklərinə həddən artıq diqqət kəsilirlər. Bəlkə də ciddi bir təhlilçi üçün bunu demək bir qədər düzgün deyil, amma Avropanın özündə də bir "Rusiya partiyası" var...

Məsələn, mən Angela Merkelə inanmıram. Yenə də deyirəm ki, səhv edə bilərəm, amma mənə elə gəlir ki, o, "ikibaşlı siyasət" aparır-bir tərəfdən rəsmi Vaşinqton qarşısındakı qorxu və öhdəçilik onu Rusiyaya qarşı olmağa təhrik edir, o biri tərəfdən də bu yeni "dəmir ledi" imkan düşdükcə topu ruslara ötürməyi unutmur. Məsələn, Gürcüstanın NATO-ya üzvlük məsələsi müəyyən mənada bu xanımın kaprizləri ucbatından dolaşığa düşüb...

Yayın əvvəlində birdən-birə Almaniyanın bundestaqı durub elan etdi ki, bəs xəbəriniz yoxdur, Azərbaycanda dini azadlıqlar pozulur...

O vaxt da yazmışdım, indi də təkrar edirəm ki, bu, gülünclükdən savayı bir şey deyildi! Axı hansı dini azadlıqlar pozulur?! Nədən birdən-birə Almaniyanın bundestaqı dini haqların keşikçisinə çevrildi?

Qərəz, dediyim budur ki, Azərbaycanın Avropa ilə münasibətlərinin pozulmasında bir xətt görünmür. Bu, qəribə bir əyridir - gah bu istiqamətə aparır, gah da o biri istiqamətə...

Təbii ki, ölkənin özəl problemləri də çoxdur. Bunu da vurğulamaq və etiraf etmək zorundayıq. Sadəcə, özümüzünkülərə səslənmək məcburiyyətindəyik ki, canım, tələsməyin... Hər şey dəyişə bilər! Bir də görürsən ki, məsələn, elə Almaniyada hakimiyyətə başqa bir partiya gəlir və hər şey dəyişir və yaxud da elə Avroparlamnetin tərkibi də əbədi deyil, o, da dəyişir...

Azərbaycan da elə məmurlar var ki, onlar Avropa ilə, ABŞ-la "oynamaq"dan bezliblər. Onlar qəlbən də Rusiya ilə bağlıdırlar. Təbii ki, bu adamlar "demokratiya oyunu"na son vermək və milləti öz sevdikləri və Rusiyanın da təqdir etdiyi üsullarla idarə etmək istəyirlər. Bilirsiniz, adam bunu deməyə məcbur olur ki, bizim bəzilərimizdə ötən vaxt ərzində feodal təfəkkürü nəinki azalıb, əksinə artıb. O səbəbdən artıb ki, var-dövlət, sərvət çoxalıb... Belələri elə həqiqətən də Avropa ilə "hər şeyi bitirməy"in tərəfdarıdırlar...

Yayda, səhv etmirəmsə, Səudiyyə kralı böyük bir dəstə ilə Fransaya getmiş və hətta orada çimərliyin böyük hissəsini çəpərləmişdi. İndi bizim bəzi məmurlarımız da düşünür ki, niyə səudiyyəlilərə olar, amma bizə olmaz? Niyə Avropa Şurası, Avropa Birliyi kimi təşkilatlar imkan vermir ki, bizim məmrularımız ölkəni "bildikləri kimi" idarə etsinlər?!.

Mən başa düşürəm. Həqiqətən də çox böyük "dərddir". Söhbət puldan gedirsə o, heç bizim məmurlarda da az deyil...

Qərəz, nə etmək olar? Bəlkə də demokratiya oyunları, dekorativ demokratiya avropalıların özünü də bezdirib... Onlar da daim belə edirlər. Əvvəl deyilənlərə heç inanmaq istəmirlər, düşünürlər ki, hər şeyi sözlə, tövsiyyə ilə yoluna qoya biləcəklər. Amma görəndə ki, bu, mümkün deyil, başlayırlar hər şeyi olduğu kimi adlandırmağa...

İtirən kim olur? Təbii ki, cəmiyyətlər, xalqlar... Ona görə də həyəcansız yazmaq və ya danışmaq mümkün deyil. Amma bunun da nəticəsi o olur ki, bir də baxıb görürsən ki, heç kim sənin hisslərini bölüşmür...

Tamamilə laqeyd və passiv bir cəmiyyətə çevrilmişik. Hətta onun da fərqində deyilik ki, hakimiyyətdəkilər bizi inandırmaq üçün özünə əziyyət belə vermək istəmirlər. Adam parlamentdə səslənən fikirlərə qulaq verəndə təəccübdən tam çaşıb qalır-düşünürsən, İlahi, "Piri babanın nağılları"nı xatırladan belə çıxışlar görən kimə ünvanlanıb? Doğrudanmı biz bu qədər sadəlövhük?..

Qərəz, neyləmək olar? Sadəcə, köks ötürmək. Başqa bir yol varmı? Onsuz da özümüz deyib, özümüz eşidirik...

Amma hər şey başqa cür də ola bilərdi. Fəqət, bu, da bir fərziyyədir. Bir vaxt elə hey özümüzə təsəlli verirdik ki, bundan da pis ola bilərdi...

İndisə daha müqayisəlik bir şey qalmayıb. Yadıma bir karikatura düşür. Bəli, boynunda ilgək olan adam deyir ki, qoy, bu, mənə dərs olsun! Daha demir ki, daha bundan sonrası olmayacaq, bu, elə sonuncu dərsdir...

# 12 yaşlı məktəblinin intiharının şok təfərrüatları...



# "Atalıq borcumu yerinə yetirə bilmədim..."

## Əməkdaşımız İsmayıllıda 12 yaşlı məktəblinin dəhşətli intiharının səbəblərini araşdırıb; ağır durumda yaşayan ailənin üç banka borcu varmış...









**Bu il Bilik günü həm də İsmayıllı rayonunda 12 yaşlı şagirdin intiharı ilə yadda qaldı. Məktəbli İsmət Əsədov həmyaşıdlarının yeni dərs ilinə hazırlaşdığı bir vaxtda müəmmalı şəkildə canına qıyıb. Məktəblinin intiharının səbəbi kimi məktəbə getmək üçün formasının və dərs ləvazimatlarının olmadığı iddia edilirdi. Başqa bir iddiaya görə isə 12 yaşlı məktəblinin nevroloji problemləri var imiş.**

Hadisənin təfərrüatlarını öyrənmək üçün İsmayıllı rayonuna yollandıq. Məktəblinin ailəsi və təhsil aldığı məktəbdə olaraq dəhşətli intiharın səbəblərini öyrənməyə çalışdıq.

İlk həmsöhbətimiz 12 yaşlı məktəblinin atası Qismət Əsədov oldu.

**Hələ də hadisənin təsirində olduğunu deyən ata söhbətimizin əvvəlindəcə oğlunun məktəb forması ala bilmədikləri üçün intihar etməsi versiyasını təkzib etdi. Övladının heç zaman onlardan maddi olaraq nəsə tələb etmədiyini deyən ata İsmətin düşüncələri, xasiyyəti haqda bizimlə bunları bölüşdü:** "İsmət bizdən nəsə tələb etməzdi. Maddi imkanımızın nəyə çatdığını bilirdi. Sıxıntımız çox idi, amma İsmət bunu başa düşürdü. İmkanımız çatmayan heç nəyi bu günədək tələb etməyib. Heç kimlə işi olmazdı. Qonşular da, müəllimləri də, dostları da İsməti sakit bir uşaq kimi tanıyırlar. Yeni məktəb forması ala bilməmişdik, amma İsmət bunu problem etmirdi. Elə həmin gün mağazadan dəftər və qələm almışdı. Belə bir hadisənin olacağını nə bilərdik?"

12 yaşlı İsməti intihara məcbur edəcək səbəbi soruşduqda isə ata göz yaşlarını saxlaya bilmədi. Çətinliklə, hıçqırtı ilə "atalıq borcumu yerinə yetirə bilmədim..." dedi.

**Onun üçün asan olmasa da atadan hadisənin baş verdiyi günü xatırlamasını istədik. Qismət Əsədov həmin gün yoldaşı, özü və İsmətlə birgə bağda üzüm yığdıqlarını dedi:** "Bağda işləyirdik. İsmət evə bizdən tez gəldi. Bir neçə dəqiqə sonra da biz evə gəldik. Səs-küy idi. Gördük ki, İsməti yerə uzadıblar. Onu kəndirdən bacısı və qardaşı çıxarıb".

Əsədovlar ailəsinin 4 övladı var. İsmətdən 1 yaş böyük bacısı, 2 yaş kiçik Xəyal adlı qardaşı və evin ən kiçik övladı olan 2 yaşlı Ümid.

İsmət evə qayıtdıqdan sonra evin anbarındakı çardaqdan özünü asıb. İsmətin özünü asdığını ilk olaraq qonşuda yaşayan uşaq görüb. Evdəkilərə xəbər verəndən sonra bacısı və özündən kiçik qardaşı İsməti xilas etməyə çalışıblar. Xəyal İsməti qucağına alıb, bacısı isə kəndiri boğazından çıxarıb. Lakin artıq gec olub.

Məktəblinin atası ilə söhbətimizdə intiharın səbəbi kimi ən ciddi versiya olaraq səsləndirilən maddi sıxıntının nə olduğunu öyrənməyə çalışdıq.

**Ata İsmətin intihar etməsinə səbəb olacaq vəziyyəti belə danışdı:** "Ailəmizdə maddi çətinliyimiz var. Bir neçə banka kredit borcumuz var. Son zamanlar ödəyə bilmirdik. Borclar qızımın xəstəliyinin müalicəsindən sonra yaranıb. Bankdan götürdüyüm krediti verə bilmirdim. Ödənişləri başqasından borc alıb qaytarırdım. Sonra bu borclar da çoxaldı. Borcları da qaytarmaq üçün yenə də kredit götürdük. Yoldaşımın da, mənim də adıma kredit var. Heç birimiz işləmirik. Qazancımız elə bağda işləməkdən çıxır. İsmətin intiharından iki gün əvvəl bankdan evə bir neçə nəfər gəlib. Biz evdə olmamışıq. Qızım və balaca uşaqlar olub. Uşaqlara deyiblər ki, əgər borcunuzu ödəməsəniz, polislə gəlib evinizdəki əşyaları aparacağıq. Uşaqlar qorxmuşdu. İsmət də bundan təsirlənmişdi. Bilirəm ki, maddi sıxıntılar ona təsir edirdi. Amma gizlətmək də olmurdu axı. Hər şey göz qabağında idi".

**Canına qiyan İsmətin atası:** "Oğlumun intiharından iki gün əvvəl bankdan evə gəlib deyiblər ki, əgər borcunuzu ödəməsəniz, polislə gəlib evinizdəki əşyaları aparacağıq. İsmət də bundan təsirlənmişdi"



Maddi imkanları zəif olan ailənin qazını bir aydan çoxdur ki, borc səbəbindən "Azəriqaz"ın işçiləri kəsibmiş. İntihar hadisəsindən sonra ailənin qazı verilib.

Əsədovlar ailəsi İsmayıllının Müdrüsə kəndindən 2007-ci ildə rayon mərkəzinə köçüb. 1977-ci il təvəllüdlü Qismət Əsədov fəhləliklə məşğul olur. Əlavə iş olaraq isə dağlarda itburnu yığmaqla məşğul olan Qismət Əsədov bununla ailəsinin dolanışığını təmin etməyə çalışıb. Oğlu İsmət də elə bu işdə atasına kömək edirmiş.

Evin böyük qızı uzun illərdir ki, bel nahiyəsində olan xəstəlikdən əziyyət çəkir. Elə ailənin borcu da övladlarının müalicəsindən sonra çoxalıb. Qismət Əsədovla söhbətimizdə məlum oldu ki, onların 3 banka ümumilikdə 9 min manata yaxın borcu var. Amma bu borcu heç cür ödəyə bilmirlər. Qismət Əsədov borcunu geri qaytarmaq üçün banklardan vaxt istəyib.

**Qonşularla da söhbətimizdə hər kəsdən eşitdiyimiz ümumi bir fikir var idi:** "İsmət intihar edəcək uşaq deyil. Düşünürük, amma heç bir ehtimal tapa bilmirik. Sakit, dostları ilə yaxşı yola gedən uşaq idi".

İsmətin intiharının təfərrüatlarını öyrənmək üçün onun təhsil aldığı İsmayıllı rayon 5 saylı tam orta məktəbə də yollandıq. Bizi məktəbin direktoru Elçin Məmmədov qarşıladı. Məktəb direktoru ilə söhbətimizdə İsmətin məktəbdəki davranışı, dərslərinə hazırlığı haqda məlumat öyrəndik.

E.Məmmədov dedi ki, İsmət bütün sinif yoldaşları ilə normal münasibətdə olan şagird olub. Heç bir məktəbli, müəllimlə problem yaşamayan İsmət dərslərindəki davamiyyəti və nailiyyətləri ilə də sinif yoldaşlarından seçilib.

**Məktəb direktoru İsmətin məktəbli formasına görə intihari seçməsi haqda deyilənlərin doğru olmadığını dedi:** "Hansı səbəbdən bunu edib dəqiq deyə bilmərik. Amma məktəb formasına görə belə bir iş tutması mümkün deyil. Onların ailəsini yaxşı tanıyıram. Maddi imkanları yaxşı olmasa da məktəb forması almayacaq qədər deyil. Onun atası çox zəhmətkeş insandır. Elə o insanın əllərinə baxsanız görəcəksiniz ki, o necə əziyyət çəkir. Ailənin bütün uşaqları tərbiyəli və sakitdir. Məktəbdə ümumiyyətlə imkanı zəif olan ailələrə az da olsa yardım edilir. Bizdə yardıma ehtiyacı olan ailələrin siyahısı var".

**E.Məmmədov İsmətin nevroloji probleminin olması haqda səsləndirilən fikirlərə də münasibət bildirdi. Məktəb direktoru dedi ki, məktəbin psixoloqu daim uşaqlarla ünsiyyətdə olur. Onların problemlərindən xəbər tutur:** "İsmətin şəxsi işinə baxdıqda onun necə şagird olduğunu bilmək olar. Qiymətləri, dərs davranışları həmişə qaydasında olub. Psixoloqumuz mütəmadi olaraq şagirdlərlə söhbət edir. Əgər İsmətin nevroloji problemi olsa idi bundan xəbər tutardı. Biz İsmətin şəxsi işini prokurorluq əməkdaşlarına da göstərmişik. İntihara səbəb nevroloji problem deyil".

İsmətin şəxsi işi ilə tanış olarkən qiymətlərinin əksəriyyətinin əla və yaxşı olduğunun şahidi olduq.

**Məktəb direktoru İsmətin intiharının digər uşaqlara da təsir edə biləcəyini bildirdi. Buna görə də məktəbdə intihar hadisəsi ilə bağlı danışmaq qadağan edilib:** "Bura rayon yeridir. Uşaqlar, ailələr bir-birini tanıyır. İsmət haqda yazılanların əksəriyyəti doğru deyil. Bu, digər şagirdlərə də təsir edir. Həmçinin İsmətin bacı və qardaşlarına da. İsmətin bacısı və qardaşı dərsə gəlmir. Biz onlara icazə vermişik. Bir müddət keçsin, sonra dərslərə başlayacaqlar. Bu zaman da onlar ciddi şəkildə psixoloq nəzarətində olacaqlar".

**❑ İlkin MURADOV**
**İsmayıllı**
**Fotolar müəllifindir**





YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015

# "YAP-ın siyahısından parlamentə 40-45 nəfər keçəcək"

**Əli Əlirzayev:** "Vaxt vardı bizim İqtisad Universitetində 3 nəfər YAP-çı var idi, biri də mən idim"

**YAP-ın seçki siyahısından narazı olan şəxslər də var. Hakim partiyanın qurucularından biri, "91-lər"in nümayəndəsi Əli Əlirzayev "Yeni Müsavat"a müsahibəsində adının siyahıya salınmamasından incikliyini ifadə etdi. İqtisadçı alimlə müsahibəni təqdim edirik:**

***- Əli müəllim, YAP-ın deputatlığa namizədlər siyahısı barədə fikriniz nədir?***

- Mənim adım olmayandan sonra fikrim necə ola bilər? Mən köhnələri tanıyıram, cavanları tanımıram. Yəqin ki, YAP onları yaxşı tanıyır, ona görə namizəd irəli sürüblər. Mən onsuz da proqnoz vermişəm ki, köhnə tərkibin 80 faizi qalacaq, köhnə deputatların əksəriyyəti dəyişməyəcək. Ona görə də burda sensasiyalı məsələ yoxdur. Ancaq irəli sürülən namizədlərin hamısı keçməyəcək, siyahı verilir də, verilməlidir. Amma elə seçki dairələri var ki, qurban olanlar olacaq. Vaxtilə biz də qurban olmuşuq. Bu dəfə də kimlərsə qurban olacaq. Qurbanlıq olana ömrü boyu deyiləcək ki, sənin adını verdik, amma xalq seçmədi, səndən deputat olmaz. Necə ki, mənə dedilər. Belələri seçkiyə nahaq gedirlər, gərək vəziyyəti analiz edəydilər.

***- Siz əvvəlcədən kimlərəsə bu kimi məsləhətlər vermisinizmi?***

- Onların öz işidir, mən qarışa bilmərəm. Amma deputatların siyahısı dəyişməyəcək ki... 18 dairədə yeni namizədlər irəli sürülüb, onların da bəziləri vəzifəyə gedib, digərləri də çıxdaş olub. Qalanların hamısı deputat olmaq arzusundadır. Ancaq məncə, onların hamısı seçilməyəcək. Burda müxalifət var, fərdi qaydada namizəd olanlar var, digər partiyalar var. O mənada həmin siyahıdan 40-45 nəfəri keçəcək. Ancaq yəqin ki, YAP-da xidmətləri olduğu üçün onları namizəd göstəriblər.

***- Elə adamlar tanıyırsınızmı ki, siyahıda adı olmalı idi, amma yoxdur?***

- Vallah, başqalarını deyə bilmərəm. Mən özümdən danışa bilərəm. Elə mənim özümün adım yoxdur. Əvvəlcədən də bəyanat verdim ki, adım siyahıda olmasa, müstəqil qaydada seçkiyə qatılmayacağam. Deyə bilmərəm ki, niyə filankəsləri namizəd veriblər, başqalarını yox. Yəqin kimlərinsə xidməti olmayıb ki, verməyiblər. Mənim nəyimə lazımdır gedib başqalarının işinə qarışım. Amma siyahıda köhnə YAP-çılardan heç kəs yoxdur. Qəbul edirəm ki, YAP-ın rayon təşkilatının sədri namizəd olmalıdır. Əli Əhmədovu verməsələr ki, o, vəzifədədir. Amma digər təşkilat sədrləri namizəd olmalıydı. Özləri istəməsə, bu, başqa məsələdir. Prinsipcə, YAP-ın sədri deputat olmalıdır. Ancaq öz tərəfimdən deyə bilərəm ki, mən narazıyam. Düzdür, Siyavuş Novruzov dedi ki, xalq keçən seçkidə məni seçmədiyi üçün namizədliyim verilməyib. Mən də razılaşıram ki, yəqin doğrudan da xalq məni istəmir, gedib öz yerimdə oturum, çörəyimi qazanım. Çünki bundan əvvəl 35 saylı seçki dairəsindən namizədliyimi verdim, İqbal Ağazadə seçildi, hansı ki, YAP-ın siyahısında olduğum halda axır günlərdə mənə qayğı azaldı və İqbal Ağazadə keçdi. Yəqin ki, İqbal Ağazadə yenə seçiləcək və ordan irəli sürülən YAP-çı qurban olacaq. Növbəti seçkidə 34 saylı dairədən namizəd oldum, Gülər Əhmədovanı dəstəklədilər, mənə ən az səs yazdılar. Xalq mənə cəmi 200 səs verdi. İndi yenə də namizəd olmağım düzgün olmaz.



***- Siz özünüz hansı dairənin seçicisisiniz?***

- Mən özün Suraxanıda yaşayıram, amma qeydiyyatım Xətaidə, 34 saylı dairədədir.

***- Ordan seçkiyə Fuad Muradov qatılıb, yəqin ki, gedib ona səs verəcəksiniz...***

- Mən seçkiyə gedəcəyəm, baxaq, görək dairədə başqa kimlər var, tək Fuad deyil ki.

***- Eldar Sabiroğlunun sərt ittihamları oldu və YAP-dan da ona cavab verildi.***

- Mən Eldarın pis adam olduğunu heç təsəvvür də etmirəm. Eldar xidməti olan adamdır. YAP-ın ağır günlərində Eldar orda işləyib, savadlı oğlandır, yaxşı qələmi var. Ona görə də deputat olub. YAP-ın 1-ci siyahısında Eldar deputat olub. Partiya siyahısında 19-cu o idi, 20-ci mən. O keçdi, mən qaldım. Mən rəhmətlik Ziya Bünyadovun ölümündən sonra qanuni yerimə keçdim. Amma Eldarın xidmətləri olub, dövlətə sadiq, Heydər Əliyevi istəyən adamdır. İndi kimlər ondan narazıdır, şəxsi işləridir, istənilən halda xidmətlərinə kölgə salmaq lazım deyil.

***- Siyavuş Novruzov onu xəyanətdə ittiham etdi.***

- Belə demək olmaz. Bu sözə görə onu məhkəməyə də vermək olar. Kimə xəyanət edib? Dövlətə, xalqa xəyanət etməyib, bu, düzgün deyil. Hər kəs öz danışığına fikir verməlidir. Hansısa fikirlə razılaşmamaq olar, ancaq faktlar əsasında danışmaq lazımdır.

***- Adınız YAP-ın siyahısına salınmadıqdan sonra partiyada fəaliyyətinizi davam etdirəcəksiniz?***

- Mən YAP-ı yaradanlardanam. YAP-ı yaratdığım günləri yadıma salanda gözlərim yaşarır. Mən fəxr edirəm ki, YAP-ı yaratmışam. Nə olsun ki, bəzi adamlar YAP-ı zəbt edib. Elə adamlar var idi ki, heç YAP-a yaxın da düşmürdülər. Vaxt vardı bizim İqtisad Universitetində 3 nəfər YAP-çı var idi, biri də mən idim. YAP-ın yaradılması zamanı Heydər Əliyevin yanında 10 nəfər var idisə, biri də mən idim. İndi mən bütün bunları qoyum, gedim kimə qulluq edim? Ona görə mən ömrümün axırına qədər YAP-da qalacağam, dövlətimə və xalqıma qulluq edəcəyəm. Elə adamlar var ki, nələrsə deyirlər, Allah göydən baxır. Heç kəsi ittiham etmək lazım deyil. Kiminsə narazılığı ola bilər, hamı istəyir yaxşı yaşasın. O demək deyil ki, onu "xəyanətkar" adlandırasan. Azad, sərbəst ölkədir, hərə öz fikrini deyir. Eldar Sabiroğlunu da vəzifəyə qoymaq, səfir yollamaq olar. Çağırıb söhbət etmək lazımdır ki, o, nə istəyir. Heydər Əliyev rəhmətliyin yaxşı sözü vardı, həmişə mənə deyərdi ki, Əli, filankəs nə istəyir, niyə narazıdır, bəlkə vəzifə, pul istəyir? Narazısansa, onun səbəbləri olmalıdır da. Onsuz da dünya ağır vəziyyətdədir, ölkəmizə də bunun təsiri var. Gördünüz Avropa Parlamentinin qətnaməsi hansı vəziyyət yaratdı?

***- Siz də Avroparlamentin qətnaməsinə münasibətdə deputatlar kimi düşünürsünüz?***

- Yox, mənim münasibətim fərqlidir. Avropa Parlamenti niyə belə bir sənəd qəbul etməlidir, oturub səbəblərini araşdırmalıyıq. Bunların qarşısını almaq üçün işləmək, səhvləri düzəltmək lazımdır. Gəlin görək kimdir siyasi dustaqlar? Bunları müzakirə etmək üçün Avropa Parlamentinə gedək. Yaxud demokratiya, insan hüquqları ilə bağlı məsələləri araşdıraq, müzakirələr aparaq. İndiki deputatlar bunları bilməlidir. Gələcəkdə nələr baş verəcək, bunların qarşısı qabaqcadan alınmalıdır. Avropa da bizə dost deyil ki. Həmişə təzyiq edəcək. Ancaq məsələləri sakit şəkildə araşdırmaq lazımdır. Məsələn, mən inanmıram ki, Azərbaycanda Vətənə xəyanət edən adamlar var. Odur ki, adını "vətənə xəyanət" qoyub bəzi adamları həbs etmək düzgün deyil. Azərbaycan xalqı heç zaman öz vətənini başqasına dəyişməz. Elə, obaya, qohuma, torpağa sevgi var bizim xalqımızda. Elə cinayətlər var ki, onları araşdırıb adamları bağışlamaq olar. Deyək ki, ciddi bir cinayət etməyən, 5-6 uşağı olanlar var ki, onun 8 il həbsdə yatmasına ehtiyac yoxdur. Azərbaycan qonşuları ilə də, Avropa ilə də normal münasibətdə olmalıdır. Əks təqdirdə, özümüz əziyyət çəkə bilərik. Avropa ölkələrinin də diktəsi var, reallıqları nəzərə almalıyıq. Mənim az yaşım yoxdur, təcrübəm var. İndiki zamanda xırda hissləri bir kənara qoyub məsələlərə soyuqqanlı şəkildə yanaşmaq lazımdır.

❑ E.PAŞASOY



Qənirə Paşayeva



Zeynəb Xanlarova

# Daha bir neçə nəfər mövqeyini qətiləşdirdi

## Qənirə Paşayeva, Hacı Madər, Jalə Əliyeva, Tahir Kərimli və Araz Əlizadə seçkidə iştirak qərarını verdi; Zeynəb Xanlarova isə son sözünü deməyib

**"Jurnalist dostlarımızın seçkilərdə iştirak edib-etməyəcəyimlə bağlı suallarına cavab olaraq bildirmək istəyirəm ki, namizədliyimi hazırda millət vəkili olaraq Milli Məclisdə təmsil etdiyim 105 saylı Tovuz seçki dairəsindən irəli sürmüşəm".**

Bu sözləri Milli Məclisin 105 saylı Tovuz seçki dairəsindən olan deputatı Qənirə Paşayeva sosial şəbəkədə qeyd edib.

SSRİ xalq artisti, deputat Zeynəb Xanlarova millət vəkilliyinə namizədliyini hələ irəli sürməyib. 50 saylı Qobustan-Abşeron seçki dairəsindən *(əvvəlki adı 50 saylı Qobustan-Xızı-Sumqayıt)* axar.az-a verilən məlumata görə, adıçəkilən dairəyə Zeynəb Xanlarovanın namizədliyi barədə müraciət daxil olmayıb. Xanım deputatın köməkçisi Mələk Bayramova "Yeni Müsavat"a bildirdi ki, hələ Zeynəb xanım son qərarını ona deməyib.

**Milli Məclisin bitərəf deputatı Jalə Əliyeva** noyabrın 1-nə təyin olunan növbəti parlament seçkilərində iştirak etmək üçün deputatlığa namizədliyini irəli sürəcək. Bu barədə publika.az-a J.Əliyeva özü bildirib. J.Əliyeva yenə də 92 saylı Zərdab-Ucar seçki dairəsindən namizədliyini irəli sürəcəyini deyib: "Hazırda sənədlərimi hazırlayıram. Yəqin ki, yaxın günlərdə sənədlərim seçki dairəsinə təqdim olunacaq". **J.Əliyeva təmsil olunduğu dairədən YAP-ın namizəd irəli sürməsi məsələsinə də toxunub:** "Bu seçkidir, burada kimin seçilib-seçilməməsini seçici həll edir. Nəticə necə olacaqsa, bu, seçki günü bəlli olacaq. İnşallah, nəticə seçki günü bilinəcək". Xatırladaq ki, hakim Yeni Azərbaycan Partiyası (YAP) 92 saylı Zərdab-Ucar seçki dairəsindən Gülağa İsgəndərovun namizədliyini irəli sürüb.

Ümid Partiyasının sədri İqbal Ağazadə ilə Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə parlament seçkilərində rəqib olacaqlar. AzNews.az xəbər verir ki, A.Əlizadə parlament seçkilərində iştirak edəcəyini və namizədliyini irəli sürəcəyi dairəni açıqlayıb. Bildirib ki, 35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizəd olacaq. Məlumat üçün bildirək ki, İ.Ağazadə də eyni dairədən namizədliyini irəli sürüb. Yeni Azərbaycan Partiyasının 35 saylı Xətai üçüncü seçki dairəsindən namizədi isə Ağrılı Aliyədir.

Vəhdət Partiyasının sədri Tahir Kərimli də seçkilərə qatılmağa qərar verib. T. Kərimli APA-ya deyib ki, o, namizədliyini 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən irəli sürəcək. Qeyd edək ki, 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən isə Ərəstun Cavadovdur.

**Parlamentin ən uzunömürlü deputatlarından olan Hacı Madər Musayev bu il noyabrın 1-nə təyin olunan növbəti parlament seçkilərinə namizədliyini irəli sürüb. Namizədliyini 10 saylı Binəqədi üçüncü seçki dairəsindən irəli sürdüyünü deyən Hacı Madər sözügedən ərazidən lazımi dəstəyi alacağına əminliyini bildirib:** "Mən müstəqil adamam, namizədliyimi də müstəqil formada irəli sürmüşəm. YAP da bu dairədən namizəd irəli sürübsə, yaxşı edib. Mənim doğma kəndim də bu dairədə yerləşir. Yəqin ki, Allahın köməyi ilə seçicilər də mənə etimad göstərərlər. Göstərməsələr belə, mən onlara heç bir söz deyə bilmərəm, bu, onların öz seçimləridir".

Xatırladaq ki, 10 saylı Binəqədi üçüncü seçki dairəsindən hakim Yeni Azərbaycan Partiyası (YAP) Samirə Həsənovanın namizədliyini irəli sürüb.

❑ Cavid TURAN



# Anton Dostlerin siyahısı

Zamin HACI
zaminhaci@gmail.com

**Bir neçə gün qabaq oxuculardan biri "AzərTAc"ın xəbərinin linkini mənə yollamışdı. Xəbərdə deyilirdi ki, YAP Qazax sement zavodu ilk partiya təşkilatının iclası olub. İclasda çıxış edən zavodun direktoru, rayon qəzetinin müdiri və sairə şəxslər ictimai-siyasi həyatdan, zavodda görülən işlərdən-zaddan danışıblar, axırda təzə üzvlərə vəsiqələr verilib.**

Eynilə SSRİ dövründəki kimidir. Sadəcə, KP-ni YAP əvəz eləyir. Yoxsa bədbəxt sement zavodu fəhləsinin nəyinə lazımdır siyasət? İclasda iştirak etməmişik, amma böyük ehtimalla çıxış edənlər "Böyük Qardaş"ın uzaqgörən siyasətini dəstəkləyiblər, **"MÜHARİBƏ-SÜLHDÜR, AZADLIQ-KÖLƏLİKDİR, CƏHALƏT-QÜVVƏDİR"** şüarlarını qışqırıblar.

Srağagün YAP deputatxana seçkisinə namizədlərinin siyahısını açıqlamışdı, "Yeni Müsavat"ın bu mövzuya qoyduğu başlıq çox xoşuma gəldi: "YAP namizədlərini açıqladı, seçki bitdi". Çünki elə həmin gün bütün dairələrdə qanunsuzluğa yüksək sürət verilibmiş, başqa namizədlərin sıxışdırılması, imza toplanmasına əngəllər artıbmış.

Doğrudan da hər seçkidə belə olur. YAP namizəd(lər)ini açıqlayana qədər cəmiyyətdə müəyyən ümidlər yaranır. İnsanlar fikirləşirlər bəlkə bu dəfə insafa gəldilər, bəlkə bu dəfə gözləri doyub, bəlkə bu dəfə nəsə dəyişəcək. "Bəlkə"nin bar vermədiyini isə, uca millət yaddan çıxarır. Həmişəki kimi köhnə hamamın yırtıq tasını qoyurlar millətin qabağına, deyirlər, buyur, çim. Nə qədər istəsən... Lap kirə də çıxa bilərsən.

"YAP-ın namizədləri" adlanan o virtual-mistik siyahını isə heç oxumağına dəyməz. Siyahı açıqlanandan sonra bəzi KİV-lərdə "YAP-dan kim gedib, kim qalıb", "Hakim partiya hansı deputatları dəyişdi" tipli müzakirələri də görəndə bişmiş toyuğu gülmək tutur. Guya o siyahı nəyi dəyişir? Guya siyahıda hansısa "Məmməd"i başqa "Əhməd" dəyişəndə, "Gülçöhrə"nin yerinə "Tükəzban" qoyulanda parlamentimiz yaranacaq? Boş şeydir. YAP sistem halında saxtakarlıq mənbəyidir, onun siyahıları formalizmdən başqa bir şey deyil.

Örnək üçün, mən burda YAP-ın dogruçu deputat siyahısını sizə təqdim edə bilərəm. Buyurun, tanış olun, hər kəsin qarşısında dairələr yazılıb:

Polis serjantı.
Neft buruğu.
Saxtakar müəllimə - Əfruz xala, misal üçün.
JEK işçisi.
Prokurorun bacanağı.
İcra başçısının yeznəsi.
Maarif müdiri.
Baş həkimin silləvuranı.
Daxili qoşunların giziri.
"Quska" və Abdullanın varisləri.
Məhkəmə hakimi.
Mədət müəllim başda olmaqla penisentiar.
AzTV-nin operatoru.
AzərTAc-ın goperatoru.

Və sairə və ilaxır - beləcə 125 dairənin hamısı üzrə YAP-ın əsl namizədlərini özünüz də tapa bilərsiniz. Hakim partiya bunları seçir, bunların vasitəsiylə seçilir. Ortada böyük bir saxtalaşdırma mexanizmi var.

Mən hər dəfə məktəblərimizin yanından keçəndə ikili duyğu yaşayıram. Bir yandan o binalarda, divarların o üzündə kitab höccələyən balaca, saf uşaqları düşünürəm, öz-özümə deyirəm ki, məktəb binası bütün başqa binalardan qutsaldır. Hətta ən pis məktəb belə. Başqa yandan, bu binalarda keçirilən saxta seçkilərin tarixi gözüm önünə gəlir. Azı hər 5 ildən bir bu məktəblər cinayət yuvasına dönür. Bu binalarda millətin gələcəyini yerə yıxıb başını kəsirlər.

Özü də kimsə "əmr yerinə yetiririk, neyləyək" deyib yaxasını qırağa çəkməsin. Tarixdə bunun çox simvolik hadisəsi var.

Müttəfiqlər alman faşistləri üzərində qələbə qazanandan sonra Nürnberq məhkəməsi oldu. Burda faşist canilər hakim önünə çıxarıldı, bir çoxları deyirdilər ki, bizim nə günahımız var, biz əmr yerinə yetirmişik, biz əsgər olmuşuq və sairə. Bu zaman hakimlər Anton Dostler presedentini əldə əsas tutub canilərə ölüm cəzası kəsdilər.

Anton Dostler almanların italiyadakı generallarından biri olub. 1944-cü ildə onun briqadası 10-dan çox amerikalı əsgəri əsir götürür. Bu haqda Berlinə məlumat verilir, ordan əmr gəlir ki, əsirlər güllələnsin. Dostler əmri öz adyutantı Don-Şlobitten-ə ötürür, ancaq adyutant əmri yerinə yetirməkdən imtina edir, deyir beynəlxalq konvensiya var, əsirləri öldürmək olmaz. Bu zaman Dostler adyutantı işdən kənarlaşdırır, əmri dərhal, özü həyata keçirir. Elə hakimlər də qərar verəndə Dostlerin bu canfəşanlığını nəzərə alırlar. Dostler presedenti isə hüquqa düşür, gələcəkdə neçə-neçə hərbi caniyə tətbiq edilir. Artıq "Günahın hamısı Hitlerdə idi, bizi o məcbur elədi" demaqoqiyası işə yaramırdı.

Sözümün canı odur ki, bu gün başqaları da özünü Anton Dostler kimi aparmasın. Nə biləsən, bir də görürsən hardansa müttəfiqlər çıxır, adamı Nürnberqə aparırlar.

# Erməni müxalifətçi Azərbaycana qaçdı

## Bu gün Bakıda Vaan Martirosyanın və arvadının iştirakı ilə mətbuat konfransı olacaq

**Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Emilyeviç Martirosyan Azərbaycandan siyasi sığınacaq istəyib. Vaan Martirosyan rəhbərlik etdiyi müxalifyönümlü "Milli Azadlıq Hərəkatı" təşkilatının fəaliyyətinə görə Ermənistan Respublikasının dövlət orqanlarının və ayrı-ayrı səlahiyyətli şəxslərinin təzyiqlərinə məruz qalıb.**



O, özünün və ailəsinin şəxsi təhlükəsizliyi ilə əlaqədar Ermənistandan qaçaraq Azərbaycana gəlib və siyasi sığınacaq istəyib.

Vahan Martirosyan bu il avqustun 15-də evində döyülüb. Müxalifətçinin evinə basqın edənlər onu və arvadını döyüblər.

Virtualaz.org saytı xəbər verir ki, bu döyülmə nəticəsində Martirosyanın hamilə arvadı uşaq salıb.

Martirosyanın bildirdiyinə görə, onu hakim Respublika Partiyasından deputat-oliqarx Mqer Sedrakyanın mühafizəçiləri və yaxınları döyüb.

Ermənistan Baş Prokurorluğu bu fakt üzrə cinayət işi qaldırıb. Lakin bildirib ki, Martirosyanı və arvadını döyənlər kənar şəxslər olmayıb. Əslində həmin gün Martirosyan arvadı ilə dalaşıb, davada Martirosyanın atası da iştirak edib. Belə ki, Martirosyanın arvadı Karine Qasparyan polisin 1-02 xidmətinə zəng edərək qayınatası tərəfindən döyüldüyünü bildirib. Bundan 4 dəqiqə sonra Vahan özü polisə zəng edib və naməlum silahlı adamların onun evinə hücum edib döydüyünü bildirib.

Prokurorluğun bildirdiyinə görə, avqustun 14-də axşamdan xeyli keçmiş Martirosyan arvadı ilə dalaşıb, mübahisəyə onun qonşusu və qonşusunun qonağı da qarışıb. Qonaq özünü polis əməkdaşı və deputat Sedrakyanın qohumu kimi təqdim edib. Martirosyan onunla da dalaşıb və evdən çıxarıb.

Daha sonra qonşunun oğlu və daha bir neçə qonşu Martirosyanın evinə gələrək onunla mübahisəyə başlayıblar, bu zaman Martirosyanın ictimai-siyasi fəaliyyətindən epizodlar da xatırlanıb. Sonra həmin şəxslər Martirosyanın arvadını döyüblər və ona bədən xəsarəti yetiriblər.

Prokurorluq bildirib ki, "məişət zəminində" baş vermiş bu davaya görə cinayət işi qaldırılıb və Martirosyanla arvadı zərərçəkən kimi tanınıb, ancaq onlar ifadə verməyə gəlməyiblər. Qadının uşaq salması da təsdiqini tapmayıb.

Vahan Martirosyanın başçılıq etdiyi "Milli Azadlıq Hərəkatı" tələbə hərəkatı kimi yaranıb və ilk dəfə Ermənistanda institutlarda təhsil haqqının artırılmasına etiraz olaraq izdihamlı tələbə aksiyaları təşkil edib. Daha sonra hərəkat Rusiyanın "Qazprom" şirkətinin Ermənistandakı törəmə şirkətinə qarşı etirazlara başlayıb, habelə Ermənistandakı "Talana son" aksiyalarının iştirakçılarından olub.

Vahan Martirosyan Azərbaycana insan haqları müdafiəçisi Novella Cəfəroğlunun köməyi ilə qaçıb.

Virtualaz.org saytı xəbər verir ki, bu haqda Novella Cəfəroğlu özü "İnterfaks"a məlumat verib.

"Bizim gürcü həmkarlarımız mənə məktub verdilər. Orada deyilirdi ki, Vahan Martirosyanı və onun arvadını döyüblər, nəticədə qadın uşaq salıb"- deyə Novella Cəfəroğlu bildirib.

Hüquq müdafiəçisi deyib ki, o, Azərbaycanın dövlət strukturları ilə əlaqə yaradıb və "onlar Martirosyana sığınacaq veriblər".

N.Cəfəroğlu əlavə edib ki, bu gün Bakıda V.Martirosyanın və arvadının iştirakı ilə mətbuat konfransı olacaq.

# Avropa liderləri Azərbaycanla bağlı vəziyyəti müzakirə edirlər

## **Avronest rəhbərliyi:** "Yaranmış vəziyyəti Azərbaycan Milli Məclisi ilə müzakirə etməyə hazırıq"

**Strasburqda AŞ PA prezidenti Ann Brasser, Avropa Parlamentinin rəhbəri Martin Şults və Aİ-nin Genişlənmə üzrə Komissarı Yohannes Hanın görüşü keçirilib. Görüşdə hər iki parlament qurumunun siyasi qrup liderləri iştirak ediblər.**



AŞ PA mətbuat xidmətinin məlumatında deyilir ki, görüş iştirakçıları Türkiyədəki vəziyyəti, miqrantlar problemini, Ukraynadakı münaqişəni, habelə Azərbaycan və Rusiya ilə münasibətləri müzakirə ediblər.

Müxtəlif siyasi qrupların siyasi liderləri ortaq həllər tapmaq üçün müzakirəsini və əməkdaşlığı davam etdirməyə razılaşıblar.

Mətbuat xidmətinin məlumatına görə, Ann Brasser görüşün yekunlarına görə "hökumətlər öz öhdəliklərinə görə cavab verməlidirlər", deyə bildirib. (contact.az)

Avronest rəhbərliyi Azərbaycan Milli Məclisinin Avronest Parlament Assambleyasından çıxmaq barədə qərarından təəssüfləndiyini bildirib.

**APA-nın Avronestin saytına istinadən verdiyi məlumata görə, bu barədə Avronestin həmsədrləri Heidi Hautala və Viktor Dolidzenin birgə bəyanatında deyilir. Onlar bildiriblər ki, Avronest PA artıq məsələdən məlumatlıdır:** "Azərbaycan Milli Məclisi rəsmi şəkildə Avronest həmsədrlərini məlumatlandırdıqdan sonra qurumun normal şəkildə fəaliyyətini davam etdirməsi üçün lazımi addımlar atmaq məqsədilə vəziyyəti dərhal dəyərləndirəcəyik. Avronest PA "Şərq Tərəfdaşlıq" Proqramı üçün çoxtərəfli parlament qurumu olaraq qalır. O, Avropanın Şərq qonşularının Avropa İttifaqına siyasi və iqtisadi cəhətdən inteqrasiyasını sürətləndirmək məqsədilə açıq və inteqrasiya ruhunda fəaliyyət göstərməyə davam edəcək. Avronest PA-da iştirak etmək meyarlara cavab verən bütün əlaqədar "Şərq tərəfdaşı" ölkələrinin suveren və könüllü qərarıdır. Bu baxımdan biz Milli Məclisin qərarına hörmətlə yanaşırıq. Hesab edirik ki, bu qərar təəssüfləndiricidir və Milli Məclisi region üçün vacib olan birgə parlament iclaslarında fikirlərini söyləməkdən məhrum edəcək. Bu qurumdan çıxmaq haqqında qərar xəbərdarlıq etdikdən bir il sonra qüvvəyə minir. Bu müddətdə biz Milli Məclislə vəziyyəti müzakirə etməyə hazır olduğumuzu bildiririk".

# Hakimiyyətin növbəti "müxalifətsiz seçki" taktikası

## Yerlərdə opponent namizədlərə ağlasığmaz təzyiqlər başlayıb

**Bölgələrdə "müxalifətsiz seçki" taktikasına start verildiyi barədə seçkilərə qatılan siyasi təşkilatlardan və şəxslərdən xəbərlər gəlməkdədir. 7 partiyanın təmsil olunduğu "Azadlıq- 2015" blokunun yaydığı rəsmi açıqlamada bildirilir ki, iki gündür dairələrdə namizədlərin qeydə alınması ilə bağlı situasiya kəskin şəkildə pisləşib. İcra hakimiyyəti orqanları kütləvi şəkildə blokun səlahiyyətli nümayəndələrinə, irəli sürülmüş namizədlərə, onların ailə üzvlərinə, qohumlarına və s. qanunsuz yollarla təzyiqə başlayıb.**

Blokun seçki qərargahı bəyan edib ki, məqsəd hər cür vasitələrdən istifadə edərək yerlərdə hakimiyyət üçün "problemsiz", şikayətsiz, "skandalsız", müşahidəçisiz, müxalifətsiz seçki mühiti yaratmaqdır.

"Azadlıq 2015" seçki situasiyasının kəskin pisləşməsinin YAP-ın siyahısının açıqlanması ilə üst-üstə düşməsinə diqqəti cəlb edib, göstərilən qanun pozuntularını hakimiyyət orqanlarının seçkiyə kobud müdaxiləsi kimi dəyərləndirərək, bunları pisləyib və bu rəzalətə son qoyulmasını tələb edib. Açıqlamada həmçinin deyilir ki, blokun iclasında bir sıra nümayəndələr tərəfindən belə şəraitdə seçkidə iştirakın mümkünsüzlüyü və bununla bağlı seçkilərdən çəkilmək ideyaları dinlənilib. Bildirilib ki, artıq bloka daxil olmayan bir sıra siyasi partiyalarda da bu mövzuda müzakirələr başlanıb və imtina qərarları presedenti var.

Müsavat namizədlərinə də yerlərdə problemlər yaradılır. Partiyanın rəsmi saytında bu barədə faktlar sadalanıb. Bildirilir ki, Göyçayda müsavatçının öz namizədliyini geri götürməsi tələb edilir, Siyəzəndə isə namizəddən ağlasığmaz sənədlər istəyirlər. Müsavat Partiyasının seçkilər üzrə səlahiyyətli nümayəndəsi Mərdan Mehdilinin verdiyi məlumata görə, ailə üzvlərinin iş yerləri haqda məlumatların istənilməsi qanunda nəzərdə tutulmayıb. DSK-dan deyirlər ki, onlara bu haqda təlimat veriblər: **"Bu məlumatları ona görə namizəddən tələb edirlər ki, sonra onun ailə üzvlərinə təzyiq etsinlər".**

Xatırladaq ki, üç gün öncə Qaradağ rayonunda Müsavat namizədi üçün imza toplayan Qədim Soltan yerli icra nümayəndəsi və bələdiyyə sədri tərəfindən oğurlanmışdı. Qədim Soltan qoçu dəstəsinin fiziki və mənəvi zorakılığına məruz qaldıqdan sonra azad edilsə də, bu cinayətlə bağlı hüquq-mühafizə orqanları heç bir tədbir görməyib.

**Müsavat başqanı Arif Hacılı "Amerikanın səsi" radiosuna müsahibəsində bəyan edib ki, seçkinin demokratik keçirilməyəcəyi məlumdur. Hakimiyyət bir müddət əvvəl keçirilən bələdiyyə seçkiləri kimi bu seçkiləri də yola vermək istəyir. Lakin Müsavat seçkidə iştirak etməklə hakimiyyətin bu istəyini həyata keçirməsinə mane olmağa çalışır:** "Azərbaycanda onsuz da son dövrlərdə keçirilən seçkilərin hər hansı legitimliyi olmayıb. Azərbaycanda faktiki olaraq, seçki adına bir əməliyyat həyata keçirilir. Bugünkü Azərbaycan hakimiyyəti



dövründə azad və ədalətli seçkilərin keçirilməsinə ümid bəsləmək sadəlövhlük olardı. Ölkədə bərabərhüquqlu rəqabət şəraiti yoxdur. Bütün seçki komissiyaları hakimiyyətin nəzarəti altındadır. Təbii ki, belə olan halda azad və ədalətli seçkilərin keçirilməsinə inanmaq sadəlövhlük olardı. Biz bu prosesdə iştirak edərək mesajlarımızı Azərbaycan cəmiyyətinə çatdırmaq istəyirik. Biz bu prosesdə iştirak etməklə Azərbaycan cəmiyyətini fəallaşdırmaq və ölkədə baş verən seçki saxtakarlığının miqyası ilə həm Azərbaycan ictimaiyyətini, həm də beynəlxalq ictimaiyyəti tanış etmək niyyətindəyik. Seçki prosesinin gedişində seçkilərdə iştirak etmə məsələsinə yəqin ki, bir neçə mərhələdə yenidən baxacağıq. Müsavat Partiyasının seçkilərdən imtinası da istisna deyil".

**"Azadlıq 2015" blokunun təsisçilərindən olan AXP-nin sədri Pənah Hüseyn isə "Yeni Müsavat"a bildirdi ki, bir sıra bölgələrdə müxalifətdən olan namizədlərə, onların nümayəndələrinə yerli icra hakimiyyəti strukturları təzyiq edirlər:** "Blokun namizədləri içərisində KXCP-nin nümayəndələri əksəriyyət təşkil edir. Həmin namizədlərin bir çoxuna yerlərdə təzyiqlər var. Biz MSK ilə əlaqə saxlayıb məlumat verdik. Bizim seçkilərdə iştirakımız həm də Azərbaycanda demokratiya uğrunda mübarizəmizin bir mərhələsidir. Biz seçkilərin hansı şəraitdə keçirilməsinin fərqindəydik və fərqindəyik. Biz mübarizəmizi davam etdirəcəyik. Şəxsən mən özüm sentyabrın 17-dən imza toplamağa başlamışam və günün sonuna kimi yekunlaşdıracağıq. Hələ ki şəxsən mənə və bizim partiyadan namizədliyi irəli sürülmüş şəxslərə qarşı müdaxilə halına rast gəlməmişəm. Amma artıq namizədlərimizdən birinin qohumunu yerli hakimiyyət orqanlarının rəhbərliyi arayıb və onunla görüşmək istədiklərini bildiriblər. Bu seçkilərdə də ötənilki bələdiyyə seçkilərindəki metod yerli hakimiyyət strukturları tərəfindən təkrar olunur. Təzyiqlər belə görünür ki, yerli təşəbbüsdür. Yerli hakimiyyət orqanları hərə öz rayonunda guya səssiz, rəvan seçki keçirilməsini istəyirlər. Çalışırlar ki, müxalif namizədləri qeydə almasınlar. Onlar başa düşmür ki, ən böyük səs-küy elə bunda olacaq".

**YAP icra katibinin müavini Siyavuş Novruzov isə bildirib ki, kimin iştirak edib-etməməsindən asılı olmayaraq seçki keçiriləcək:** "Əgər bir dairədən bir və ya iki namizəd varsa, seçki baş tutmuş hesab olunur. Kimliyindən asılı olmayaraq əgər alternativlik varsa, bu, seçkidir. Qanunda da göstərilib ki, alternativlik nəticəsində seçki keçirilir".

**Müxalifyönlü partiyaların namizədlərinin qeydə alınmaması məsələsinə münasibət bildirən Siyavuş Novruzov deyilənlərin yalan olduğunu bildirib:** "Elə bir şey varsa, Mərkəzi Seçki Komissiyasına müraciət etsinlər".

❑ **Etibar SEYİDAĞA**

# Avropadan üz çevirən Bakı Rusiyaya yaxınlaşır

## Elxan Şahinoğlu: ""Brüsselə dialoqu genişləndirməyə, mübahisəli mövzuları birgə müzakirə etməyə ehtiyac var"

**Azərbaycanın Qərblə münasibətləri kritik həddə qədər gərginləşib. Bir çox ekspertlər deyir ki, Bakı Qərbdən çevirdiyi üzünü Rusiyaya tutub. Belə görünür ki, Rusiya postsovet məkanında Ukraynanı Qərbə uduzmasının əvəzini Azərbaycanı qazanması ilə çıxır. Doğrudur, hazırda Azərbaycanın tamamilə Avropa məkanından təcrid olunduğunu demək tezdir. Lakin baş verənlər buna doğru getdiyini göstərir.**

Yeri gəlmişkən, Azərbaycanın Avropadan imtinası prosesi bir qədər əvvəl eyni xətti tutmuş Rusiya ilə tamamilə oxşarıdır. Ekspertlərə görə, Azərbaycanda indi baş verənlər bir neçə il əvvəl Rusiyanın Avropa strukturlarından kənarlaşması prosesini xatırladır.

**Politoloq Sülhəddin Əkbər** Meydan.tv-yə müsahibəsində deyib ki, hakimiyyətlə Qərb arasındakı münasibətlərdə sınma nöqtəsi bir neçə il əvvələ gedib çıxır. 2009-cu il referendumu, daha sonra 2013-cü ildə Avropa qurumlarının prezident seçkilərinə reaksiyasını xatırladan S.Əkbərə görə, məhz bu dövrdən başlayaraq hakimiyyətlə ABŞ və Qərb arasında münasibətlərdə gərginliyin əsası qoyulub: "Bu gərginlik Ukrayna böhranından sonra daha da artdı. Ukrayna böhranı-hakimiyyət dəyişikliyi və bu dəyişiklikdə Qərbin demokratik qüvvələri dəstəkləməsi rəsmi Bakını qorxutdu. Bunun nəticəsində hakimiyyət ötən ilin sonundan Qərbə qarşı təbliğat kampaniyasına start verdi və paralel olaraq Azərbaycanda demokratiya, insan haqları sahəsində durum ağırlaşdı. Beləliklə, hakimiyyətin dili ilə desək, Qərbin "5-ci kolon"unun sıradan çıxarılması müşahidə olundu".



S.Əkbərə görə, Rusiya xüsusi xidmət orqanları Azərbaycan hakimiyyəti daxilindəki "5-ci kalon"la birgə bu prosesdə fəal iştirak ediblər, vəzifənin öhdəsindən gəliblər. İndi isə S.Əkbərin fikrincə, ABŞ və Avropa Birliyi uzun müddət səbr etdikdən sonra hakimiyyətin addımlarına reaksiya verib.

**Siyasi şərhçi Elxan Şahinoğluna görə, Avropa Parlamentinin qətnaməsinə qədər Avropa İttifaqı ilə Bakı arasında münasibətlər hakimiyyətin elan etdiyi balanslaşdırılmış xarici siyasətin tərkib hissəsi idi. Ancaq ekspertə görə, son hadisələr Bakının, belə desək, ənənəvi kursdan imtinasıdır:** "Azərbaycan parlamentinin bir neçə il əvvəl qəbul etdiyi "Təhlükəsizlik konsepsiyasında" da Avrointeqrasiya kursu əsas istiqamət kimi göstərilib. Bu baxımdan Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərini aşağı səviyyəyə endirmək rəsmi Bakının həm balanslaşdırılmış siyasətinə, həm də "Təhlükəsizlik konsepsiyasına" ziddir. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərini zəiflətmək Rusiya və Ermənistanın maraqlarına cavab verir. Məhz bu iki dövlət Azərbaycanın Qərblə münasibətlərinin gərginləşməsini istəyir. Avropa İttifaqı Azərbaycanın inkişafında və sabitliyində maraqlıdır. Bununla yanaşı olaraq Azərbaycanda insan haqları və demokratik institutların da inkişafını arzulayır. Bunları heç birini nə Rusiya, nə də Ermənistan istəyir".

**Həmsöhbətimiz deyir ki, Avropa İttifaqı ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır, neft və gələcəkdə qazın əsas hissəsi məhz Avropa qitəsinə satılacaq. Bundan başqa, Avropa Komissiyası TAP və TANAP layihələrinin icrası məqsədilə Azərbaycana dəstək verir. E.Şahinoğlunun fikrincə, Avropa İttifaqı ilə əməkdaşlıqdan qopmaq və ya dondurmaq Bakı üçün zərərli olacaq:** "Brüsselə dialoqu genişləndirməyə, mübahisəli mövzuları birgə müzakirə etməyə ehtiyac var. Əgər rəsmi Bakı "Şərq Tərəfdaşlıq Proqramı"nı tərk edərsə və Avropa Parlamentinin tövsiyəsi əsasında Azərbaycan məmurlarına qarşı sanksiya tətbiq olunarsa, Avropa İttifaqının ayrı-ayrı dövlətləri Brüsselin qərarlarını yerinə yetirmək məcburiyyətində qalacaqlar. Bu halda rəsmi Bakının Avropa İttifaqının ayrı-ayrı dövlətləri ilə münasibətləri də gərginləşəcək".

**Ancaq E.Şahinoğlunn fikrincə, Avropa Komissiyası AP-nin məlum qətnaməsini icra etməyəcək. Ekspertin qənaətinə görə, bu qətnamə tövsiyə xarakteri daşıyır və Bakı daha sərt addımlara getməyəcək:** "Avropa Komissiyası Avropa Parlamentinin qətnaməsini yerinə yetirməyəcək. Avropa Parlamentinin qərarı tövsiyə xarakteri daşıyır. Ancaq əgər rəsmi Bakı "Avronest"lə yanaşı "Şərq Tərəfdaşlıq Proqramı"nı tərk etməyə qərar verərsə, bu halda Avropa Komissiyası da Azərbaycanla münasibətləri zəiflədə bilər. Bundan sonra Avropa Komissiyasının TAP və TANAP layihələrinə dəstəyi də azala bilər və ya Brüssel də bu ru xətlərindən ümumiyyətlə imtina edə bilər. Bu isə o deməkdir ki, Azərbaycan böyük bir bazar və gələcək gəlir mənbəyini itirəcək".

**"Avropa İttifaqı ilə münasibətlərin zəifldilməsinin alternativi nədir" sualına cavab olaraq E.Şahinoğlu alternativin Rusiya olduğunu, ancaq bu seçimin çox uğursuz olduğunu deyir:** "Əgər alternativ Rusiya ilə əməkdaşlığın inkişafıdırsa, bunun bizə zərəri xeyrindən çoxdur. Rusiyaya qonşu ölkələrlə bərabərhüquqlu münasibətlər lazım deyil. Moskvaya vassallar lazımdır ki, onun bütün anti-Qərb planlarını dəstəkləsin".

❑ **KƏNAN**


Siyavuş Novruzov

# “...İnciməyə haqları var”

## Siyavuş Novruzov: “YAP-ın digər partiyalardan fərqi ondan ibarətdir ki, bizdə namizəd bolluğudur”

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədlərlə bağlı açıqladığı siyahıda bir sıra diqqətçəkən adlarla yanaşı, maraqlı yerdəyişmələr də oldu. Hətta seçki siyahısı açıqlanandan sonra hakim partiya bir dairədə özünün namizədini başqası ilə əvəzlədi. Düzdür, partiya rəhbərliyi bunu kompüter xətası kimi izah etdi. Amma hər halda, aylarla gözlənilən siyahının dərcindən sonra yeni adın ora əlavə olunması suallar doğurur. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov “Yeni Müsavat”ın suallarını cavablandırdı.**

***- Siyavuş bəy, YAP-ın siyahısında əlavə hansısa dəyişiklik gözlənilirmi?***

- Hələ ki yox. 117 dairədən namizəd irəli sürmüşük, bununla əlaqədar da işlər gedir.

***- Siyahıda diqqət çəkən yerdəyişmələr oldu. Məsələn, Şəmsəddin Hacıyevin Fuad Muradovun dairəsinə gətirilməsi kimi...***

- Bir neçə belə dairə var. Bu dairələrdən rayon təşkilat sədrlərinin namizədliyi irəli sürülüb. Fuad Muradov bitərəflərin nümayəndəsidir, biz bitərəflərə cavabdehlik daşımırıq. Şəmsəddin Hacıyev isə YAP-ın Səbayel təşkilatının sədridir. Əvvəl Göyçaydan millət vəkili seçilmişdi. Lakin Səbayel təşkilatında bizim 24 mindən çox partiya üzvümüz var, o da təşkilat sədridir. Bizim tədqiqatlar da göstərir ki, partiya təşkilat sədrinin öz rayonunun ərazisindən seçilməsi daha məqsədəmüvafiq olar. O cümlədən Nəsimidə də belə oldu. Məlahət İbrahimqızı Şəmkir dairəsindən seçilmişdi, indi Nəsimi dairəsindən namizəd irəli sürülüb. Həmçinin yeni namizəd, bizim Qaradağ təşkilatının sədri Aydın Hüseynovun namizədliyi də Qaradağ rayonundan irəli sürülüb.

***- YAP-ın 8 dairədən namizəd irəli sürməməsi də maraqlıdır.***

- Biri Xankəndi dairəsidir. Bizim orda rayon təşkilatımız yoxdur. O səbəbdən bu dairədən namizəd irəli sürmədik. Qalan 7 dairənin 4-də bitərəflərin nümayəndəsini dəstəkləyirik, ölkədə tanınmış, hörmətli insanlardır, 3 nəfərsə partiya sədridir, onlara da alternativ verilməyib.

***- Ötən seçkidə Binəqədidəki 8 saylı dairədən deputat seçilən spiker Oqtay Əsədovun seçki dairəsinin bu seçkidə Abşerona dəyişdirilməsi nə ilə əlaqədardır?***

- Oqtay müəllim 2005-ci il parlament seçkilərində də 45 saylı Abşeron seçki dairəsindən seçilmişdi. Sonradan struktur dəyişiklikləri oldu, ondan sonra isə Abşeron

### YAP funksioneri Oqtay Əsədovun seçki dairəsinin dəyişdirilməsinin səbəbini də açıqladı

seçki dairəsindən Oqtay Əsədovun namizədliyi partiya tərəfindən irəli sürüldü.

***- Azay Quliyev də spikerin keçmiş dairəsinə gəldi.***

- Azay Quliyev bitərəflərin nümayəndəsidir, hardan namizəd olmağı artıq özü müəyyənləşdirir.

***- Siz demisiniz ki, namizəd olan rektorlar parlamentə düşsələr, vəzifədən getməli olacaqlar. Deməli, onların qarşısında şərt qoyulub?***

- Təbii ki. Onlar razılıq ərizəsi doldururlar. O ərizədə göstərilir ki, seçildiyi təqdirdə parlament fəaliyyəti ilə uyğun gəlməyən digər fəaliyyət növündən imtina edəcəklər.

***- Siyahıya diqqət edəndə sanki rotasiyalı qaydanın tətbiq olunması təsəvvürü yaranır. Bu, nə ilə əlaqədardır?***

- Dəfələrlə demişdik ki, seçki ərəfəsində namizədlərimizin fəaliyyətləri, dairələrin xüsusiyyətləri ilə əlaqədar müəyyən tədqiqat işləri aparırıq. Bu tədqiqat işləri toplanılır, araşdırılır və nəticə etibarilə də müvafiq məsələlər ortaya çıxır, bununla əlaqədar namizədlər müəyyənləşdirilir. Bütün bunlar hamısı bizim seçki proqramının tərkib hissəsinə daxil olan məsələlər idi. Biz seçki proqramına uyğun olaraq da bu fəaliyyəti həyata keçirdik.

***- Hazırkı deputatlardan bir neçəsi YAP-ın siyahısından kənarda qalıb. Bunu nə ilə əsaslandırardınız, seçim hansı prinsiplərlə aparılıb?***

- Onların 5-i bu və ya digər dövlət vəzifəsinə və xarici təşkilatdakı fəaliyyəti ilə əlaqədardır. 1 nəfər mandatından imtina etmişdi, 1 nəfər isə dünyasını dəyişdiyinə görədir. YAP tərəfindən seçilmiş 5 parlament üzvünün yeri boş idi. 13 nəfərinsə namizədliyi təkrarən irəli sürülmədi. Yəni üst-üstə 2010-cu ildə partiya tərəfindən namizədliyi irəli sürülmüş və seçilmiş 18 nəfərin namizədliyi təkrarən irəli sürülmədi.

***- Daha çox diqqət çəkən, müzakirə mövzusu olan Rəbiyyət Aslanova və Hacı Qalib Salahzadənin siyahıda yer almaması oldu. Onlarla bağlı əsas səbəb nədir?***

- Bizim bütün partiya üzvlərimiz partiyanın əsgəri olduqlarını deyiblər. YAP-ın üzvləri cəmiyyət və dövlət tərəfindən kifayət qədər dəstəklənən insanlardır, hər birinə hörmətlə, saygı ilə yanaşırıq. Burda partiyanın qurucuları var, “91-lər” var. Bəzi hallarda görürsən inciyirlər, inciməyə də haqları var. Hər bir insan öz yaratdığı, qurduğu bir təşkilatdan nəsə gözləyir. YAP-ın digər partiyalardan fərqi ondan ibarətdir ki, orda namizəd çatışmazlıqları gedir, bizdə isə namizəd bolluğudur. Demək olar ki, partiya üzvlərinin böyük əksəriyyəti seçkili orqanlarda layiq olan insanlardır.

***- Amma bu iki deputat daha çox diqqət çəkdi...***

- Yox, burda 13 nəfərdir, niyə 2 nəfər? Yenə deyirəm, hər biri seçilməyə layiqdir. Amma partiya da götür-qoy edib, müəyyən tədqiqatlar aparıb və nəticə etibarilə namizədlər irəli sürüb. O namizədlər ki, seçkilərdə iştirak etmir, başqa-başqa sahələrdə partiyanın, dövlətin, prezidentimizin siyasətini indiyədək olduğu kimi, bundan sonra da həyata keçirəcəklər. Diqqət etsəniz, ilk gündən başlamış indiyəcən partiya tərəfindən namizədliyi irəli sürülən, seçilən-seçilməyən, yaxud bir dəfə deputat olub, sonra olmayan bütün insanlar çox böyük diqqətə, saygıya malikdir və mütəmadi olaraq partiyanın bütün tədbirlərində aktiv iştirak edirlər.

**E.PAŞASOY**

# Şəki seçki dairəsində lətifə kimi olay

## YAP deputatlığa namizədlər siyahısını üç dəfə niyə dəyişib?; İkram İsrafil: “Böyük ehtimalla başqa şəxsin namizədliyi müdafiə ediləcək”


İkram İsrafil

**Müsavat Partiyasının 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə deputatlığa namizədi İkram İsrafilin “Azadlıq-2015" seçki blokunun təsisçilərindən biri, Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlunun xeyrinə öz namizədliyini geri götürməsinin qarşılığı olaraq ”Azadlıq 2015" bloku, blokun üzvü olan Vətəndaş və İnkişaf Partiyası addım atıb.**

Belə ki, partiya sabiq deputatın bu jestinə qarşılıq verilməsini məqbul sayıb. VİP Siyasi Şurası partiyanın və eyni zamanda “Azadlıq-2015" seçki blokunun 115 saylı Şəki kənd ikinci seçki dairəsi üzrə namizədi Salamzadə Mahir Ziyəddin oğlunun namizədliyinin geri çəkib.

**Müsavat Partiyasının Divan üzvü, sabiq deputat İkram İsrafil “Yeni Müsavat”a açıqlamasında bu addımı müsbət qarşıladığını bildirib:** “Bu xəbəri mediadan oxudum. Mən həmin bloka, xüsusilə Vətəndaş və İnkişaf Partiyasına bu addımına görə təşəkkür edirəm. Seçkilərdə əməkdaşlıq, bir-birinə güzəştli mövqedən çıxış etmək müsbət tendensiyadır”.

Hazırda Şəkidə olduğunu və Dairə Seçki Komissiyasına sənədlərini təqdim etdiyini deyən İkram İsrafil bildirdi ki, imza vərəqələrinin verilməsini gözləyir.

**İ.İsrafil 115 saylı dairədən YAP-ın namizədinin kimliyi ilə bağlı qəribə halın müşahidə edildiyini də bildirdi:** “Yeni Azərbaycan Partiyasının deputatlığa namizədlər siyahısında 115 saylı dairədən öncə Əhmədli Orxan Nofəl oğlu namizəd irəli sürülmüşdü. Bir qədər sonra onun adı çıxarıldı və başqa bir adamın adı yazıldı. Aradan bir az keçdikdən sonra həmin şəxsin də adı siyahıdan çıxarıldı və Şəki Təhsil Şöbəsinin müdirinin adı YAP-ın namizədi kimi elan olundu. Mənim fikrimcə, hakim partiya əslində formal olaraq 115 saylı dairədən namizəd irəli sürüb. Belə demək mümkündürsə, siyahı xatirinə. Əslində böyük ehtimalla bitərəf adı ilə namizədliyi irəli sürüləcək şəxsin namizədliyini müdafiə ediləcək. Hakimiyyətin dəstəkləyəcəyi başqa bir namizədin olmaq ehtimalı var. Hazırda 115 saylı dairənin deputatı ”Avromed" şirkətinin rəhbəri Cavanşir Feyziyevdir. Açığı, mən maraqlanmamışam ki, o indi namizədliyini verib, ya verməyib. Hər bir halda maraqlı seçki olacağı düşüncəsindəyəm. Seçki Məcəlləsinin tələblərinə uyğun fəaliyyət göstərəcəyik. Seçki komissiyalarından və hər bir namizəddən də Seçki Məcəlləsinin tələblərinə əməl etmələrini tələb edəcəyik".

**Sabiq deputat 115 saylı dairənin ona doğma ərazi olduğunu və məhz bu dairədən namizəd olmasının məntiqli olduğunu da vurğuladı:** “Mən 115 saylı Şəki kənd ikinci seçki dairəsinin ərazisinə daxil olan Bideyiz kəndində doğulmuşam. Bu dairəyə daxil olan kəndlərdə kifayət qədər əlaqələr var. Qohumluq, dostluq, sinif yoldaşlıq, qonşuluq əlaqələri də ki, öz yerində. Mən 2005-2010-cu illərdə Sumqayıtdan millət vəkili olsam da Bideyiz kəndində insanların bir çox problemlərinin həllinə yardımçı olmuşam. Mən özümü həm də buranın deputatı olaraq görmüşəm. Baş nazirin müavinlərindən birinə şəxsi xahişimlə dövlət hesabına kənd ərazisində su artezan quyusunun qazılmasına, kəndin asfaltlanmasına, qazlaşdırılmasına, telefonlaşmasına nail olmuşam. Bunu həm Bideyiz kəndi, həm də qonşu kəndlərin sakinləri yaxşı bilirlər, dəyərləndirirlər. Mən maraqlı bir hadisəni xatırlayıram ki, bu işlərin görülməsi üçün baş nazirin müavinlərindən birinin qəbulunda olanda o mənə dedi ki, qardaş, sən Sumqayıtın deputatısan, Şəki ilə nə əlaqən. Dedim, Şəkidə doğulmuşam, doğulduğum kənd üçün işlər görmək istəyirəm, filan işlərin dövlət proqramına salınmasını xahiş edirəm. Baş nazirin müavini mənə qayıtdı ki, Şəkinin üç deputatı var, onları hələ əhalinin problemlərinin xahişi üçün gələn görməmişik, onların xahişləri ancaq özlərinin şəxsi işləri, biznesləri ilə bağlı olur. Baş nazirin müavini mənə əhalinin problemləri ilə bağlı məsələ qaldırdığıma görə təşəkkür etdi və qaldırdığım məsələ öz həllini tapdı. Mən indi də kəndlərdə insanlardan öz deputatlarının beş il ərzində üzünü görmədiklərini eşidirəm. İnsanlar deputatlarının bir dəfə də olsun kəndlərə gəlməməsindən narazıdırlar. Ümid edirik ki, seçicilərimiz hər kəsi doğru-düzgün qiymətləndirəcəklər”.

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağ məsələsi BMT gündəliyinə gətirilir

## Münaqişə ocağında yeni müharibə ehtimalının kəskin artması vasitəçi dövlətləri də, beynəlxalq birliyi də təcili addımlar atmaq zorunda qoyur; "problemin həllinin vaxtı çatıb" deyənlər, nəhayət, sözdən işə keçəcəkmi?

**Dağlıq Qarabağ ətrafında situasiya mürəkkəb və həssas olaraq qalır. Situasiyanın ən mühüm özəlliyi hazırda odur ki, ilk baxışda vasitəçi dövlətlərin - həmsədrlərin hamısı müharibədə maraqlı olmadığını bəyan eləsə də, gerçəkdə problemin həlli yönündə heç bir addım atılmır.**



Hər halda, görünən mənzərə belədir ki, konfliktə cəlb olunan böyük güclər onun nizamlanması uğrunda deyil, həllində patronajlıq uğrunda mübarizə aparır. Söhbət təbii ki, öncəliklə Rusiya və ABŞ-dan gedir. Aydındır ki, ixtilafın yoluna qoyulmasında Moskva hələ ki müstəsna imkanları saxlayır. Ancaq hələ ki.

***

Rusiyanın məsələdə son hərəkətliliyi belə qənaət yaradır ki, bu hərəkətlilik ən əvvəl özünün cari maraqlarını təmin eləməyə yönəlib, nəinki 25 illik problemi kardinal şəkildə çözməyə. Yəni bir növ vaxt udmağa, rəsmi Bakını arxayın salmağa hesablanıb.

Bir şey dəqiqidir ki, münaqişəyə cəlb edilən tərəflər üçün Dağlıq Qarabağ məsələsinin qiyməti, əhəmiyyəti xeyli artıb, münaqişə, necə deyərlər, "bahalaşıb". Ələlxüsus da Qərbin, NATO-nun Cənubi Qafqazda, Gürcüstanda ciddi şəkildə möhkəmlənməyə başlamasından sonra Rusiyadan ötrü onun artıq təzə dəyər qazandığını söyləmək olar.

İstisna deyil ki, Dağlıq Qarabağa Rusiya sülhməramlıların yerildilməsi ilə bağlı Bakı ilə Moskva arasında hansısa ilkin anlaşmanın olması haqda Amerikanın nüfuzlu "Stratfor" kəşfiyyat-analitik mərkəzinin gəldiyi son qənaət məhz bu amildən qaynaqlanır. Ayrı sözlə, Kreml münaqişənin tam həllində maraqlı olmasa da, hazırda qətiyyən özünə sərf etməyən müharibə risklərini minimuma endirmək üçün irəliləyişin reallaşmasına yardımçı olmağa, sadəcə, məcburdur.



Əks halda, müşahidələr göstərir ki, Rusiyanın konfliktə müdaxilə imkanları getdikcə azala və patronajlıq əlindən çıxa bilər. Çünki Azərbaycan yüzdə yüz öz torpaqlarının uzun müddət işğalda qalması ilə barışmayacaq və Rusiyanı gözləməyə bilər.

Son aylar təmas xəttində iri çaplı silahlarla yanaşı, Azərbaycan tərəfinin düşməni susdurmaq üçün ağır hərbi texnika və artilleriyadan da istifadə eləməsi (bu, onun qanuni haqqıdır!), cəbhə bölgəsində intensiv iri hərbi təlimlər keçirməsi bu mənada Rusiyaya da xəbərdarlıq mesajıdır ki, Qarabağ məsələsində irəliləyişin vaxtı çoxdan çatıb. Yeri gəlmişkən, analoji açıqlamalarla həm Rusiya rəsmiləri (xarici işlər naziri Sergey Lavrov, rusiyalı ekspertlər), həm də amerikalı həmsədr Ceyms Uorlik və ABŞ-ın Azərbaycandakı və Ermənistandakı səfirləri mütəmadi çıxış eləməkdədirlər.

***

Amerikanın ən yaxın hədəfi isə sözsüz ki, münaqişə zonasında yeni, genişmiqyaslı hərbi qarşıdurma ehtimalını önləməkdir. Bundan ötrü də aylardır amerikalı vasitəçi Ceyms Uorlik aktiv diplomatik səylər göstərir, hətta Moskvaya səfər edib ki, heç olmasa, Azərbaycan və Ermənistan prezidentləri BMT Baş Məclisinin 70-ci yubiley sessiyası çərçivəsində bir araya gəlsinlər. Bu, alınmasa isə ilin sonunadək görüşə nail olunsun.

Bu arada məlum olub ki, Azərbaycanla, Dağlıq Qarabağla bağlı qətnamələr layihəsi Baş Assambleyanın bu ayın sonunda öz işinə başlayacaq 70-ci sessiyasının gündəliyinə daxil edilib. Sənədlər "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" və "GUAM məkanında dondurulmuş münaqişələr, onların sülh, beynəlxalq təhlükəsizlik və inkişaf üçün fəsadları" adlanır. Sessiyada Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil edəcək.

Xatırladaq ki, "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsi Baş Assambleyanın 69-cu sessiyasının gündəliyində olsa da, müzakirəyə təqdim olunmadığı üçün 70-ci sessiyanın gündəliyinə daxil edilib. O zaman sənədin gündəliyə salınmamasında Minsk Qrupu həmsədrlərinin Bakıya təsiri, hətta təzyiqi həlledici rol oynamışdı. Motiv də belə idi ki, məsələnin BMT gündəliyinə gətirilməsi müəyyən mənada Minsk Qrupunun fəaliyyətsizliyinin etirafı demək olardı.

O zaman Azərbaycan tərəfi, üstəlik, həmsədrlərin nizamlama prosesində irəliləyiş vədlərini nəzərə alaraq, öz təşəbbüsündən müvəqqəti əl götürmüşdü. Lakin ötən bir illik zaman kəsiyi göstərdi ki, sülh prosesində nəinki heç bir uğura cəhd edilməyib, üstəgəl, yeni müharibə ehtimalı heç vaxt olmadığı qədər artıb. Bundan əlavə, Azərbaycanın işğal altındakı ərazilərində Suriyadan erməni köçü güclənib ki, bu da Bakını haqlı olaraq narahat edir və öz torpaqlarını daha qısa zamanda azad eləmək imperativi qarşısında qoyur.

Bu və digər amillərə görə Azərbaycan məsələni BMT gündəliyinə qaytarmaq və özünün suverenliyini və ərazi bütövlüyünə bir daha dünya birliyinin dəstəyini almaq istəyində tamamilə haqlı görünür. Bu, həm də beynəlxalq birliyə aydın bir mesaj ola bilər ki, əgər o, Yaxın Şərq münaqişəsi tipində daha bir konflikt ocağı arzulamırsa, o halda təcavüzkarla təcavüzkar kimi davransın və onun Azərbaycan ərazilərindən çıxmasına, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair məlum qətnamələrinin qeyd-şərtsiz yerinə yetirilməsinə yardımçı olsun.



# AŞ PA məruzəçisi cəbhədə erməni tərəfini vizual müşahidə etdi

## Uolter bölgə əhalisinə qarşı erməni təxribatları ilə yerində tanış olub...

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) məruzəçisi cəbhə bölgələrində olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Trend"ə bildiriblər ki, AŞ PA-nın siyasi işlər və demokratiya komitəsinin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi cənab Robert Uolter sentyabrın 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşdə cəbhəboyu zonaya, xüsusilə təmas xəttinə səfər edərək yerli əhali və şəxsi heyətlə görüşmək niyyətində olduğunu bildirib.**

R.Uolterin vəziyyətlə yerində yaxından tanış olmaq xahişi müsbət qarşılanaraq onun təhlükəsizliyi təmin olunmaqla Müdafiə Naziriliyinin nümayəndələrinin müşayiəti ilə qonaq helikopterlə cəbhə bölgəsinə aparılıb.

Səfər zamanı R.Uolter Bərdə, Tərtər, Ağdam bölgələrində olub, qoşunların təmas xəttində, ön səngərlərdə şəxsi heyətlə görüşüb, onların sosial-məişət problemləri ilə maraqlanıb və qarşı tərəfi vizual müşahidə edib.

Erməni silahlı bölmələri tərəfindən daim atəşə məruz qalan Tərtər rayonunun Qapanlı kənd sakinləri ilə görüşdə son günlər düşmən tərəfinin vəziyyəti daha da gərginləşdirərək minaatanlardan və iriçaplı silahlardan yaşayış məntəqələrini atəşə tutması faktı qonağın diqqətinə çatdırılıb. O da bildirilib ki, hətta bir neçə gün əvvəl kənddə keçirilən toy mərasiminin atəşə tutulması nəticəsində iki qadın və bir uşaq güllə yaraları alıblar.

R.Uolter səfər zamanı əldə etdiyi məlumatlardan yararlanacağını bildirib və problemin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həll olunacağına əminliyini ifadə edib.

Müxtəlif istiqamətlərdə ön səngərlərdə döyüş tapşırığı yerinə yetirən hərbi qulluqçularla görüşlərdə isə qonaq əsgər və zabitləri dinləyib, onların suallarını cavablandırıb, eləcə də onun özünü maraqlandıran məsələlərə cavab tapıb.

Bölgələrə səfəri başa çatdıqdan sonra R.Uolter Bakıya qayıdıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015



# İcra başçısı ilə tanınmış vəkil arasında qalmaqal

## Vəkil Aslan İsmayılov ölkə başçısına və baş prokurora müraciət edib, mətbuatdan kömək istədi

**Tanınmış vəkil Aslan İsmayılov Sabunçu Rayon İcra Hakimiyyətinin (RİN) başçısı Adil Vəliyevin adamlarının hücumuna məruz qalması barədə facebook səhifəsində məlumat yayıb. Vəkil baş verən insidentin yaranmasının səbəblərini göstərib.**

O bildirib ki, hər şey Abbas Quliyev adlı şəxsin Dövlət Reyestrindən çıxarışı əsasında Kürdəxanı qəsəbəsində 24 sot torpaq sahəsi ətrafında hasar çəkməyə cəhd göstərməsindən başlayıb. A.Quliyev torpaq sahəsinin zəbt edilməməsi üçün 1 metr hündürlüyündə hasar çəkdirmək istəyib. Vəkilin sözlərinə görə, buna RİH-in nümayəndəsi olan Həbib adlı şəxs açıq şəkildə mane olaraq, torpaq sahəsinin sahibini icra hakimiyyətinə dəvət ediblər. Bundan sonra alver başlayıb. A.Quliyevə bildiriblər ki, 3 min manat pul verməlidir. Bütün söhbətlər icra başçısının adından aparılıb. Sonda Həbib 2500 manata razılaşıb. A.Quliyev sonradan bildirib ki, torpağı 2500 manata onlara satmağa razıdır. Lakin ona deyirlər ki, ya pul verəcəksən, ya da hasar olmayacaq və torpaq əlindən alınacaq".

**A.İsmayılovun sözlərinə görə, tanışları A.Quliyevə bir vəkil kimi ona müraciət etməyi tövsiyə edir:** "Mənə bu barədə müraciət olandan sonra icra başçısı Adil Vəliyevlə danışdım. Bilirdim ki, Vəliyev əvvəllər "Porsche" mağazası işlədib, ancaq icra hakimiyyəti ilə mağazanı dəyişik saldığını söhbətdən sonra bildim. Birinci danışıqda mənə bildirildi ki, sənədlər artıq məhkəməyə göndərilib. Bütün məhkəmələri axtarıb işin məhkəmədə olmadığına əmin olandan sonra yenidən Adil Vəliyevlə əlaqə saxlayıb ona bildirdim ki, sənədlər məhkəmədə yoxdur, işçiləri qanunsuzluq edirlər. İcra başçısı isə kobud şəkildə dedi ki, heç bir hasar tikintisinə icazə verməyəcək, çünki sənədlər qanunsuzdur. Mən sənədlərin Azərbaycan dövlətinin adından Dövlət Reyestr Xidməti tərəfindən verildiyini xatırladanda isə başçı bildirdi ki, hamı bilir ki, rüşvət alıb veriblər. Adil Vəliyevə dedim ki, heç kimdən rüşvət alınmayıb. Hasarın çəkilməsi üçün isə Şəhərsalma və Tikinti Məcəlləsinin 79-cu maddəsində deyildiyi kimi, hündürlüyü ən çoxu 2 metr 20 santimetr olan və qonşu torpaq sahəsi ilə sərhəddə və ya küçə boyunca hasarların (təbii və süni daşdan olan hasarlar da daxil olmaqla) tikintisinə heç bir icazə tələb olunmur. Amma icra hakimiyyətinin nümayəndələri torpağın hər sotuna görə 2500 manat rüşvət istəyirlər".

**Vəkil insident barədə də geniş məlumat verib:** "Sentyabrın 14-də iştirakımla hasar tikintisi yenidən aparılarkən, özlərini icra hakimiyyətinin nümayəndələri kimi təqdim edən və idmançı formasında olan 4 nəfər "Niva" markalı maşında, eyni görkəmli Rafael adlı şəxs (Sabunçu RİH-in rəsmi saytında onun RİH hüquq şöbəsinin hüquqşünası kimi çalışdığı bildirilir, soyadı da Abdullayev-dir-A.İ.) isə 10 SD 300 nömrəli, "Mercedes G Class" avtomobilində gəlib işləri yenidən dayandırdılar.

Mən şikayət edəcəyimi bildirdikdə isə onlar "hara istəyirsən yaz" deyib məni davaya çəkməyə başladılar. Onların dava salmaq istədiklərini görüb əvvəldən hazırladığım sənədləri, reyestrdən çıxarışı, qanunlardan qeydləri, Adil Vəliyevin özünə və yaxınlarına məxsus olan və dəyəri milyonlarla ölçülən maşınların şəkillərini və haqqında mətbuatda getmiş şikayətlərin surətlərini ona təqdim edib, dərhal oranı tərk etdim".



Adil Vəliyev



Aslan İsmayılov

**Baş verənlərlə bağlı "Yeni Müsavat"a açıqlama verən A.İsmayılov ölkə başçısı İlham Əliyevə, baş prokuror Zakir Qaralova müraciət etdiyini bildirdi:** "Bu, mənimlə Adil Vəliyev arasında olan qarşıdurma deyil. Yəni şəxsi məsələdən doğmur. Özbaşınalıq o həddə gəlib ki, biz susduqca, daha pis olacaq. Demokratik cəmiyyət qurmaq istəyən ölkələrin hamısında qanunsuz halları ictimailəşdirirlər. Bunları etməklə, digərlərini də qanunsuz əməllərdən çəkindiririk. Hazırda əsas məqsədim budur. Kim olmasının mənim üçün problemi yoxdur. Adil Vəliyev olmur, Əli Vəliyev olsun. Açığı, Adil Vəliyevi yaxından belə tanımıram. Sadəcə, telefonla danışmışam. O, tam qanunsuzluqla məşğuldur. Heydər Əliyev Fondunun adından istifadə edərək, müəyyən ərazini bağlayır. İnsanlar da elə bilirlər ki, fond onlara park tikir. Sonradan açılışı olanda məlum olur ki, özünə şəxsi bağça tikib. Ölkə prezidenti və baş prokurora müraciət etmişəm. Başqa nəyəsə gücüm yoxdur".

**Vəkil mətbuatdan kömək istədi:** "Mətbuat bu məsələdə mənə kömək edərsə, minnətdar olaram. İndidən bu məsələni gündəmdə saxlayan bütün mətbuat orqanlarına təşəkkürümü bildirirəm. Sizin qəzetiniz vasitəsilə bütün mətbuata səslənirəm. Belə halları daim ictimailəşdirmək lazımdır. Artıq bu, bütün əndazələri aşıb. Baş verənlər dözülməzdir. Ölkə vətəndaş müharibəsinə sürüklənir. Əgər biz Azərbaycanın Suriya, Liviya olmasını istəmiriksə, bu halların qarşısını almalıyıq. İnsanlarda yığılan nifrət partlayıb küçələrə töküləndə, onun qarşısını heç kim ala bilməyəcək. Bura vətənimizdir. Məni ən çox incidən odur ki, yazdıqlarımın altında deyirlər ki, Aslan müəllim özünüzü yormayın, vaxtınızı itirməyin. Ən dəhşətlisi bax budur".

**A.İsmayılov icra başçısının arxasında hakimiyyətin yuxarı dairələrinin dayandığını söylədi:** "Adil Vəliyevin arxasında mümkün deyil ki, hakimiyyətin ilk üçlüyünə, beşliyinə daxil olan şəxslərdən kimlərsə dayanmasın. Belə odur ki, bu şəxsin arxasında dayanan şəxsin vəzifəsi çox böyükdür. Mənə açıq şəkildə Rəfail adlı şəxs deyir ki, Adil Vəliyev nə istəyirsə, onu elə. Bu nə deməkdir? Özüm şəxsən Adil Vəliyevə bildirdim, özünüz deyirsiniz, nə istəyirsən elə, indi mən bildiyimi edəcəm. Hələ çox materiallar olacaq. Artıq materiallar toplanıb. Mən bu problemdən çıxış edərək, digər ictimai-siyasi xadimlərə, siyasətçilərə, hüquqşünaslara müraciət edirəm. Onlar da öz səhifələrində qanunsuz əməllərlə məşğul olan başqa şəxslər barədə məlumat versinlər. Hamısı bir bezin qırağıdır. Rayonlarda icra başçısı özünü Allahın yerdəki nümayəndəsi hesab edir. Bir şeyə tam əminəm. Bu ölkənin başında duran ilk onluğa daxil olan şəxslər bir nəfərin arxasında dursalar belə, ictimai fikir, insanlar birləşib, bir gücün üzərinə getsələr, heç nə bu gücün qarşısında dayana bilməz".

**Səslənən iddialarla bağlı Sabunçu Rayon İcra Hakimiyyətinin mövqeyini aldıq. İcra başçısının köməkçisi Müslüm Mahmudov lazım gələrsə, mətbuata açıqlama verəcəklərini qeyd etdi:** "Deyilənlər cəfəngiyyatdır. Bu barədə lazım gələrsə, mətbuata məlumat veriləcək".

❑ **Cavanşir ABBASLI**

# İcra başçısı təhsil şöbəsinin müdirini işdən çıxara bilərmi?

## Etibar Əliyev: "Yaxşı ki, rektorları prezident təyin edir, yoxsa..."

**Sumqayıta yenicə icra başçısı təyin edilmiş Zakir Fərəcov keçirdiyi müşavirə zamanı Sumqayıt şəhər təhsilindəki vəziyyətin ürəkaçan olmadığı bildirərək təhsil şöbəsinin müdiri Vaqif Ələkbərovu işdən çıxarıb. İcra başçısı qeyd edib ki, təhsil sahəsində çalışanlar yalnız təhsillə məşğul olmalıdırlar: "Tədbirlər zamanı dərsdən qalma, qəbul zamanı pul alma məsələləri tamamilə yığışdırılacaq"**

Ümumiyyətlə, vəzifəyə yenicə təyin edilmiş hansısa bir məmurun özünü təsdiq etməsi üçün yerdəki işçilərini vəzifəsindən azad etməsi kimi hallara çox rast gəlinir. Məsələn, əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov vəzifəsinə yenicə təyin olunan zaman xeyli idarə rəisini elə ilk iclasda işdən çıxarmışdı. Ancaq hazırkı durum, yəni icra başçısının təhsil şöbəsinin rəhbərini işdən çıxarması bir az fərqlidir. İnsanların beynində belə bir sual yaranır: İcra başçısının təhsil şöbəsinin müdirini işdən çıxarmaq hüququ varmı? Ümumiyyətlə, hər hansı şəxs təhsil şöbəsinə kimin göstərişi və imzası ilə təyin edilir?

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov bildirdi ki, yerli təhsil idarəetmə orqanının rəhbəri icra hakimiyyətinin rəhbəri tərəfindən vəzifəyə təyin edilə və ya vəzifədən azad edilə bilər:** "Mövcud qanunvericiliyə görə, yerli təhsil idarəetmə orqanının rəhbəri icra hakimiyyətinin rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Vaqif Ələkbərov Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdir müavini vəzifəsini daşımış, müdir vəzifəsinin icrası ona həvalə edilmişdi. Təhsil nazirinin əmrinə əsasən, Vaqif Ələkbərov dövlət qulluğunda olmanın yaş həddinə çatdığına görə və səhhəti ilə əlaqədar öz ərizəsi ilə Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdir müavini vəzifəsindən azad edilmişdir".



Etibar Əliyev

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev belə halların ikili tabeçiliyin törətdiyi eybəcərlik olduğunu dedi:** "Son illər Azərbaycanda minlərlə məktəb tikilib və əsaslı təmir olunub, müəllimlərin əmək haqqı yüksəldilib, müəllim hazırlığına diqqət artırılıb, orta təhsildə təmayülləşmə prosesi gedir, direktor olmaq istəyənlərə xüsusi təlim kursları keçilir, yeni fənn proqramları üzərində işlər aparılır, fənlər üzrə nümunəvi olimpiadalar keçirilir. Ən əsası isə məktəb mühitinin yaxşılaşdırılması üçün vacib işlər görülür. Bütün bu işlər Təhsil Nazirliyi tərəfindən görülür. Ancaq bu qurumun razılığı olmadan, təhsil şöbəsinin müdirini icra başçısı iclasdan və işdən qovur. Yuxarıda sadaladıqlarımla bu hərəkət üst-üstə düşmür. Belə çıxır ki, təhsil şöbə müdirinin təyinatında Təhsil Nazirliyindən razılıq alınır, çıxarılmasında isə yox. Əcaib paradoksdur. Belə hallar ikili tabeçiliyin törətdiyi eybəcərliklərdir. Sual olunur: əgər söhbət təhsilə canı yanmaqdan gedirsə, onda Zakir Fərəcov Abşeron təhsilinin biabırçı vəziyyətinə görə Nadir Ağayevi niyə işdən çıxarmırdı?!

Sumqayıt təhsilinin səviyyəsi ilə Abşeron təhsilinin səviyyəsi arasında yerlə göy qədər fərq var! Ötən tədris ilində Sumqayıt şəhər abituriyentlərinin qəbul imtahanlarında topladıqları orta bal respublika üzrə orta göstəricidən 14,3 faiz yuxarı olub. 2015-2016-cı tədris ilində Sumqayıt məktəblərinin göstəriciləri bundan da yüksəkdir. Bu il Sumqayıt məktəblilərinin biri hətta 700 bal toplayıb".

**E.Əliyev Abşeron məktəblərində Sumqayıt məktəblərindən fərqli olaraq qiymət şişirdilməsinə yol verildiyini, Z.Fərəcovun da o zamanlar buna göz yumduğunu bildirdi:** "Abşeron məktəblərində qiymət şişirdilməsinə yol verilir. Və rayonun riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən xeyli aşağıdır. Qəbul imtahanlarında 600-dən çox bal toplayan Sumqayıt məktəblilərinin sayı Abşeron məktəblilərinin sayından 4,5 dəfə çoxdur. Bu hadisə onu göstərdi ki, artıq təhsilin vahid mərkəzdən idarə olunmasının vaxtı çatıb. Ölkədə təhsil siyasətini həyata keçirən qurum Təhsil Nazirliyidir və onun iradəsindən kənarda bu cür və buna bənzər addımlar atılmamalıdır. Belə hallar həm də ölkə qanunvericiliyi ilə daban-dabana ziddir. Yaxşı ki, rektorları prezident təyin edir, yoxsa icra başçıları rektorlarla da təhsil şöbə müdirləri kimi davranardılar".

❑ **Günel MANAFLI**

# Bakı-Sumqayıt yolunda qətliam kimi qəzalar - 6 ölü

**Şosselərdə quraşdırılan dəmir arakəsmələr ölüm saçır; ictimai nəqliyyat sahibləri ilə bağlı məsuliyyət dərəcəsinin artırılması təklif edilir; Sumqayıtda daha bir qadını qatar vurub öldürdü**



**Sentyabrın 17-də səhər saatlarında Bakı-Sumqayıt yolunda - Ceyranbatan qəsəbəsi ərazisində dəhşətli qəza baş verib. Qəza nəticəsində 2 nəfər hadisə yerində, 1 nəfər isə xəstəxanada həyatını itirib. Yaralıların sayı isə 10 nəfərdir. Onlardan ikisinin ayağı amputasiya edilib. Qəzada ölənlər Elnur Cəfərov, Amil Abdullayev və Ofelya Məmmədovadır.**

**Yaralılar aşağıdakılardır:**

1. Əhmədov Rəşad
2. Cavadov Rövşən
3. Allahverdiyev İbadət
4. Ağakişiyev Baloğlan
5. Paşabəyov Afiq
6. Məmmədova Əsmər

2 qadın və 2 kişinin adları isə naməlumdur.

Yaralılardan 3 nəfərinin vəziyyəti çox ağırdır.

Bakı-Sumqayıt yolunda baş verən ağır yol qəzasında xəsarət almış yaralıların durumu ağırdır. Sumqayıt mərkəzi şəhər xəstəxanasının baş həkimi Vaqif Qəhrəmanovun APA-ya bildirdiyinə görə, hadisədən sonra xəstəxanaya 10 yaralı gətirilib.

"Bizə 10 nəfər gətirildi, həkimlər daxil olan yaralıları ilkin müayinədən keçirdi, sonra onları uyğun şöbələrə yerləşdirdik. Yaralıların böyük əksəriyyətinin vəziyyəti ağır olduğundan onlar reanimasiya blokuna, oradan isə cərrahiyyə otağına köçürüldü".

**Hadisənin canlı şahidi olmuş şəxs qəzanın səbəbləri barədə ehtimallarını söyləyib. Mikroavtobusla yanaşı hərəkət edən maşının sürücüsü qəzanın bir an içində baş verdiyini deyib:** "Sürücü qəfildən ayıldı, kamera gördü, ya nə isə oldu, bilmədik. İdarəetməni itirdi, maşını dəmir hasara çırpdı. Hasardakı dəmir maneə maşını və içəridəki sərnişinləri ot kimi biçdi. Bu, qəza deyildi, qətliam idi".

Bakı-Sumqayıt yolundakı dəhşətli qəzada ölənlərdən birinin tələbə olduğu məlum olub.

"Qafqazinfo"nun verdiyi xəbərə görə, bu barədə onun yaxınları məlumat veriblər. Qəzada həlak olan Masallı rayon sakini Amil Abdullayev "Embawood" şirkətinin işçisi olub. Evin tək oğlu olan Amil bir müddət öncə atasını da itiribmiş. A.Abdullayev həm də tələbə olub, xaricdə təhsil alırmış.

Qəzada ölən digər sərnişin Cəfərov Elnurun yaxınları isə bildiriblər ki, o, 25 gün əvvəl qız atası olub.

Qeyd edək ki, Elnur da həmyerlisi Amil kimi atasını itirib. O, doğulduğu Masallı rayonunda dəfn olunacaq.

Qeyd edək ki, "Ford"da olan sərnişinlərin əksəri "Embavood" şirkətinin işçiləri olub.

**

Sumqayıtda daha bir ağır qəza baş verib. Magistralın 48-ci kilometrliyində, Sumqayıt şəhəri ərazisində "Hyundai" markalı avtomobil yol kənarında dayanan 4 piyadanı vurub. Onlardan 3-ü ölüb, bir nəfər isə xəsarət alıb. Daxili İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Sumqayıt şəhərinin H.Z.Tağıyev qəsəbəsində Laçın rayon sakini Nailə Kazımova idarə etdiyi "Hyundai" markalı avtomobillə yolun kənarında dayanmış Xaçmaz rayon sakinləri Səbuhi Məlikovu, Fərman İsmayılovu, Lətif Məmmədovu və Nağdəli Babayevi vurub. Nəticədə S.Məlikov, F.İsmayılov və L.Məmmədov hadisə yerində ölüb, N.Babayev və N.Kazımova isə xəstəxanaya yerləşdirilib.
















**

Sumqayıtda daha bir ölümlə nəticələnən qəza baş verib. Saat 07:55-də Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən elektrik qatarı Baş Keşlə-Bakı yük mənzilinin 2656-cı kilometrindən keçərkən hadisə baş verib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Mətbuat Katibliyinin rəisi Nadir Əzmməmmədovun verdiyi məlumata görə, Bakı şəhəri, Keşlə qəsəbə sakini, Aşıq Qərib küçəsi, ev 33 ünvanında yaşayan, 1964-cü il təvəllüdlü Qətibə İsmayıl qızı Abdullayeva qatarın çatmasına 15-20 metr qalmış qəfildən dəmir yolu xəttinin üzərinə uzanaraq intihar edib.

İlkin məlumata görə, Q.Abdullayevanın ruhi xəstə olduğu bildirilir.

**

Sentyabrın 17-də Masazır-Novxanı yolunda da "Ford" markalı avtomobilin iştirakı ilə daha bir avtomobil qəzası qeydə alınıb. 26 yaşlı Babayev İmran Niftəli oğlunun idarə etdiyi "Ford" markalı kiçik tutumlu yük maşını Masazır qəsəbəsindən Novxanı qəsəbəsi istiqamətində hərəkətdə olarkən qarşıdan gələn və Əliyev Mehdi İbrahim oğlunun idarə etdiyi "Opel" markalı minik maşını ilə toqquşub. Zərbə güclü olduğundan, avtomobillər ciddi deformasiyaya uğrayıb.

Qəza nəticəsində sürücü Mehdi Əliyev ağır xəsarət alıb. Onun deformasiyaya uğramış avtomobildən çıxarılması üçün hadisə yerinə FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri cəlb edilib. Ağır vəziyyətdə avtomobildən çıxarılan sürücü 1 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılıb. Onun müalicəsi reanimasiya şöbəsində davam etdirilir.

**

Ağır yol qəzaları ilə bağlı aparılan müşahidələr onu deməyə əsas verir ki, ölümə səbəb olan qəzaların baş verməsinin bir səbəbi sürətdirsə, digər əsas səbəb yolların standartlara uyğun olmamasıdır. Son qəzanın müşahidəsi göstərir ki, avtoban yollarda qoyulan dəmirlər ölümə səbəb olan amillərdən biridir.

Ümumiyyətlə, Azərbaycanda yollar çox bərbad şəkildədir, yeni salınan yollar dardır, yol kənarlarına qoyulan dəmirlər, arakəsmələr korrupsiya nəticəsində yöndəmsiz inşa olunur və bu üzdən də sürücülər üçün real təhlükə mənbəyinə çevrilir.

**

Yol hərəkəti üzrə tanınmış ekspert, hüquqşünas Ərşad Hüseynov Sumqayıt yolunda baş vermiş dəhşətli qəza ilə bağlı fikirlərini açıqlayıb. Avtosfer.az-ın məlumatına görə, ekspert bildirib ki, Bakı-Sumqayıt marşrutu ilə işləyən əksər avtobus sürücüləri insanın edə biləcəyi bütün intizamsızlıq və tərbiyəsizlikləri o yolda edirlər.

**Ərşad Hüseynov bu gün Ceyranbatan qəsəbəsi yaxınlığında baş verən qəzada ən azı 3 ciddi təhlükənin rolu olduğunu vurğulayıb:**

**1.** Bakı-Sumqayıt marşrutu ilə işləyən avtobusların, xüsusən də qəzaya düşənə bənzər mikroavtobusların əksər sürücüləri insanın edə biləcəyi bütün intizamsızlıq və tərbiyəsizlikləri o yolda edirlər. Onların əksəriyyəti "Şumaxer"dir. Sürücü vəhşiliyini görmək və müşahidə aparmaq üçün həmin yolda işləyən avtobusları müşahidə etmək yetər.

**2.** Bakı-Sumqayıt yolu heç bir standarta uyğun gəlməyən ən təhlükəli yollardan biridir, üstəlik, bu yola 110 km/saat sürət həddi qoymanın bircə adı var: hoqqabazlıq.

**3.** Ölkəmizin yollarının kənarına çəkilən və dünyanın hər yerində əsas təyinatı "qorumaq" olan metal sədlər real ölüm təhlükəsi doğurur, çünki bizim yollara bu sədlər heyvan arxacının kənarına çəkilən çəpər prinsipi ilə tətbiq olunur. Amma bu texniki vasitənin harada, hansı məsafədə qoyulması, materialı, fiziki xüsusiyyətləri ilə bağlı standartlar var və s.

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 207(6235) 18 sentyabr 2015




# Qurban bayramının fəlsəfəsi

**Cümə söhbətləri**

**Bismilləhir-Rəhmənir-Rəhim! Qurban bayramı yaxınlaşır... Yaxın günlərdə Allah evinin ziyarətinə getmiş hacılar ümrə əməllərini yekunlaşdırıb, yenidən ehramlanacaqlar. Təqva və paklıq rəmzi olan libası geyinərək, Ərəfət çölünə üz tutacaq hacılar. Rəbbləri ilə əhd-peymanlarını təzələmək, İlahi hüzurda vücudi imtahanlarını şərəflə vermək üçün müqəddəs Ərəfət çölündə vüquf edəcək - məskun olacaq hacılar. Rəbbləri qarşısında günahlardan paklanır, rəzillik və çirkinliklərdən imtina edərək, ibadət edirlər onlar...**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Nələrin simvolu var burada...

Axşamçağı milyonlarla insandan ibarət bir möhtəşəm sel Məşhərül-hərama - Qiyamət səhnələrini xatırladan bir məkana üz tutacaq. İnsanın özünəqayıdışına təkan verən riqqətli anlarını yaşayır burada hacılar. Sübh açılır... Mübarək zilhiccə ayının 10-cu gününün sübhü. Günəşin şölələri Yer üzünü işıqlandırmağa başlayarkən, hacılar Minaya keçid edirlər. Necə də əzəmətli bir toplum! Nə möhtəşəm bir səhnə!

Minada hacılar lənətlik iblisi simvolizə edən cəmərələrə - sütunlara yetişirlər. Burada öz hiddətlərini zahir edir, xəbisliklərə, nəfsani asılılıqlara nifrətlərini büruzə verirlər. Daşlayırlar lənətlik iblisi hacılar! Daşlayırlar qəlblərində olan rəzil qul psixologiyasını! Atdıqları hər daşla sanki damcı-damcı çıxarırlar rəzillikləri qəlblərindən onlar! Əslində iblisin hər bir təzahürünə, hər bir zülmünə, hər məkan və zamanda, hər rəzil sifətdə, hər mənfur cilddə olan təzühürünə daş atırlar hacılar! Daşa basırlar lənətlik şeytanı hacılar!

Sonra hacılar qurbangaha gedirlər. Allah! Allah! Düşünmək istəyən insan üçün nələri simvolizə edir bu qurbangah!! Bəndənin ixlasını, Rəbbi önündə gözəl imtahan verməninin rəmzidir bu qurban!

Əzəmətli bir bayramdır Qurban bayramı. Mövcudiyyətin fəlsəfəsinə nə dərin eyham var buradaE İlahi imtahandan sonadək ləyaqətlə çıxmağa bir abidədir bu gün. Fədakarlığı örnək edən, gözəl amal uğrunda ən qiymətlisindən belə, keçməyi öyrədən bir gündür bu gün...

## İsmayıl qurbanlığı

Həzrət İbrahimin (ə) qurbanı - İsmayıl qurbanlığı... Allah Təala Həzrət İbrahimi (ə) - Öz müxlis bəndəsini sınağa çəkir. Sevimli övladını qurban kəsməyi buyurur ona Rəbbi. İlahi buyuruğu yerinə yetirmək üçün oğlunu götürüb Minaya gedir Həzrət İbrahim (ə). Oğlunu Allah yolunda qurban kəsmək istərkən, möcüzə baş verir - kəsmir bıçaq!

İlahi tərəfdən bəndənin üzərinə düşən vəzifə nə qədər çətin olsa da, İlahi eşqin şirinliyi bu çətinliyə qalib gəlir və lakin, bu anda, kəsməyə məhkum olan iti bir bıçaq öz kəsmək funksiyasını yerinə yetirməyə aciz qalır! Bıçaq hərəkətə gətirilir, baş bıçağın altında, amma iti bir bıçaq kəsmir!

Allahın əmin mələyi - Həzrət Cəbrayıl (ə) nazil olaraq, Həzrət İbrahimə (ə) buyurur ki, o, İlahi imtahandan şərəflə çıxmışdır. Bir qoyun əta edilir Həzrət İbrahimə - İsmayıl qurbanlığı. İsmayılın yerinə bunu qurban kəsmək buyurulur ona.

İlahi! Necə heyrətli bir səhnə! Necə vücudi bir durum! Kəsməli olan bəndə də, kəsilməli olan bəndə də şərəflə öz imtahanlarını verirlər! Bütün yaradılış aləmi bu vücudi səhnəni qibtə ilə seyr edir. Budur həqiqi insan! Budur Bəndə! Budur kamil bəndə məqamı! İnsan bəndəlik məqamına, kamillik məqamına beləcə ucalır! Bu şərəfli imtahanın müqabilində bir gerçək kəsilməli İsmayıl qurbanlığı bəşərə hədiyyə edilir...

Minaya ayaq basmış hacılar, Allah dərgahında bu səhnəni yaşayaraq, Allah dərgahında qurban kəsirlər.

Bu mətləbdir Qurban bayramının fəlsəfəsini özündə təcəssüm edən, İlahi Quran məntiqindən əxz edilən gözəl və dərin bir mətləb - Uca Allaha həqiqi bəndəlik etmək məqamının daşıyıcısı olmaq və bu ülvi məqamı hər bir şəraitdə yaşatmaq, çətinliklərə sinə gərərək, həyata keçirmək. Hər bir müsəlmanın üzərinə bu vücudi səhnədən lazımi nəticə çıxarmaq vəzifəsi gəlir.

## Həzrət İbrahimin (ə) dəvəti

**İndi isə müqəddəs həcc mərasimi barədə olan Quran ayələrinə diqqət edək.** "Və (yada sal) o zaman(ı) ki, İbrahim üçün (Kə'bənin sütunlarını Adəmin qoyduğu təməl üzərində qaldırsın deyə) Kə'bə evinin yerini hazırladıq (və ona dedik) ki: I(Bu evin həcc mərasimində) heç nəyi Mənə şərik qoşma və Mənim evimi təvaf edənlər, (ibadətə) duranlar və rüku və səcdə edənlər üçün təmizlə!»

"Və insanları ümumi şəkildə (Allah evinin) həcc(in)ə çağır ki, (onlar sənin dəvətin nəticəsində Qiyamət gününə kimi) piyada və hər uzaq yoldan gələn arıq dəvələr üstündə sənə tərəf üz tutsunlar".

"Nəticədə öz (dünya və axirət) mənfəətlərinin bir hissəsini müşahidə etsinlər və müəyyən günlərdə (Zilhiccə ayının ilk on günündə, yaxud bayram günü və ondan sonrakı üç gündə) Allahın onların ruzisi etmiş olduğu heyvanlar( - dəvə, inək və qoyunu qurban kəsərkən onların başı) üzərində Onun adını çəksinlər. Beləliklə, ondan özünüz də yeyin, çox ehtiyac içində olan yoxsula da yedirin». ("Həcc" surəsi, ayə 26-28).

Müqəddəs ayələrdən bəlli olur ki, Kəbə evi əvvəllər də olmuşdur. Kəbə evi Həzrət Adəm (ə) tərəfindən inşa edilmişdir. Həzrət Nuhun (ə) zamanında baş verən tufan zamanı Kəbə evinə müəyyən xəsarət dəyir. Allah Təala bu müqəddəs məkanın yerini İbrahim peyğəmbərə (ə) bildirir. İbrahim peyğəmbər (ə) də buranı övladı İsmayıl peyğəmbər (ə) ilə birgə yenidən inşa edir. Kəbə evi hazır olandan sonra Allah Təala İbrahimə (ə) buyurur ki, buranı tövhid evi etsin. Təvaf edənlər, namaz qılanlar, rüku edənlər və səcdəyə gedənlər üçün bu evi təmizləsin.

Həqiqətdə İbrahim peyğəmbərin (ə) vəzifəsi - müqəddəs Kəbə evini zahiri və mənəvi şirklərdən təmiz saxlamaq idi. Bəndələrin burada yalnız Allaha pərəstiş etməsini təmin etmək lazım idi. Bu məkanın ən mühüm ibadəti - təvaf və namazdır.

**Kəbə evi ibadət edənlər üçün hazır vəziyyətə düşəndə isə Allah İbrahimə (ə) əmr edir ki, insanlara həccə gəlməyi elan etsin. Təfsirlərdə oxuyuruq:** "O zaman ki, İbrahim bu əmri alır, Allaha ərz edir ki, axı səsim insanların qulağına çatmayacaqdır. Ancaq Allah ona əmr edir ki, sən elan et və Mən onların qulağına çatdıraram".

Həzrət İbrahim də (ə) əllərini qulağına qoyaraq, şərq və qərbə səda edərək, deyir: "Ey insanlar! Kəbə evinin həcci sizə yazılmışdır və Pərvərdigarınızın dəvətini yerinə yetirin".

Allah onun sədasını hamının qulağına, hətta ana rəhmində olan körpələrin belə qulağına çatdırır. Onlar da cavabında dedilər: "Ləbbeyk! Allahummə, ləbbeyk!" - "Allahım, dəvətini qəbul etdik!". O gündən Qiyamət gününə qədər bu mərasimdə iştirak edənlər o kəslərdir ki, Həzrət İbrahimin (ə) dəvətini qəbul ediblər.

Bir nöqtəni də qeyd edək ki, heyvanları qurban etmək - həqiqətdə bir rəmzdir ki, insan özünü Allah yolunda qurban etməyə hazırlayır. Necə ki, Həzrət İbrahim (ə) İsmayılı (ə) qurban etməyə hazırlamışdı. Onlar bu əməlləri ilə elan edirlər ki, Allah yolunda hər bir fədakarlığa, hətta canlarından keçməyə belə hazırdırlar.

Allah Təala hamımıza bu gözəl mərasimdə iştirak etmək tofiqini nəsib etsin!. Nəsib etsin ki, o gözəl Zatın gözəl cilvələrini mənəvi gözümüzlə, ruhumuzla hiss edək və günahlarımızdan paklanmağa çalışaq. Onun o Müqəddəs dərgahında söz verək ki, təqvalı insan olacaq və günahdan uzaq olmağa çalışacağıq. İnşəallah!

Qurban bayramı bizim üçün bir çağırışdır. İsmayıllarımızı Allah yolunda verməyə nə qədər hazırıq? Həzrət İbrahimlə (ə) müqayisədə bizim özümüzü də sınağa çəkməyə imkan yaranır. Qurban bayramı - əslində fədakarlığın, sınağın formalaşdığı bir gündür.

## Müstəti kimdir?

İndi isə bir neçə kəlmə həcc ziyarətinə getmək vəzifəsinin insanın üzərinə düşməsi barədə qeyd edək.

Həcc ziyarətinə getməyin bir neçə mühüm nöqtəsi var:

- İmkanı olan şəxsə (şəriətdə belə insana müstəti deyirlər) ömründə yalnız bir dəfə İslam həcci (həccətül-İslam) vacib olur.

- İmkanı olan şəxsə (müstəti) həcc dərhal vacib olar. Yəni bir şəxs, müstəti olduğu ilk ildə həcci yerinə yetirməlidir və onu təxirə salmaq lazım deyildir. Təxirə saldığı təqdirdə, sonrakı ildə həcci yerinə yetirməlidir.

- Əgər mükəlləf (üzərində şəri vəzifə olan şəxs - burada həccə getməli olan şəxs) səhlənkarlıq edib həccə getməzsə, həcc onun üzərində qalar və sonradan hər bir surətdə - hətta imkanı aradan getsə də - həccə getmək onun üçün vacib olur.

## Həccə getməyin vacib şərtləri

*Həcc bir neçə şərtlə vacib olar (bu şərtlərin hamısı mövcud olmazsa, həcc vacib deyildir).*

*a) Həddi-bülüğə çatmaq*

*b) Aqil olmaq (ağlı başında olmaq).*

*Deməli, uşağa və əqli naqisliyi olan şəxsə həcc vacib deyildir.*

*c) Mal-dövlət, bədənin sağlam və qüdrətli, yolun açıq və vaxtın kifayət qədər olması baxımından müstəti olmaq.*

*- Mal-dövlət baxımından müstəti olmaq - yol azuqəsi və nəqliyyat vasitəsinin olmasından ibarətdir. Əgər bunların özü olmasa, onları əldə etmək üçün xərcləyə biləcək miqdarda pul və ya malın olması da kifayətdir. Qayıtmaq xərclərini də təmin etmək imkanının olması şərtdir.*

*- Həccin vacib olmasında gedib-qayıtmaq xərclərindən əlavə, öz şəninə uyğun (qazancına, imkanına müvafiq) həddə ev və ev əşyaları, nəqliyyat vasitəsi və məişət üçün zəruri olan başqa şeylərə də malik olması şərtdir. Əgər onların özü də olmasa, onları əldə etmək üçün lazimi qədər pulu, yaxud dəyərli bir əşyası olmalıdır.*

*- Həcdən qayıdana qədər ailəsinin xərclərini ödəməyə imkanın olması, müstəti üçün şərtdir.*

*- Həcdən imkanlı qayıtmaq, yəni qayıtdıqdan sonra həyat tərzinin maddi cəhətdən çətinliyə düşməməsi üçün ticarət, əkinçilik, sənətkarlıq, yaxud bağ və dükan kimi mülkiyyət mənfəətinə malik olmaq - müstəti üçün şərtdir. Əgər öz halına uyğun qazanc əldə etmək qüdrəti olarsa, kifayətdir. Əgər qayıtdıqdan sonra dolanış tələbatı aylıq maaşla təmin olarsa, kifayətdir.*

*- Həccin vacib olması üçün bədən, yol və zaman cəhətdən imkanın olması şərtdir. Buna görə də yol getmək qüdrəti olmayan, yaxud çox əziyyət çəkən xəstə üçün həcc vacib deyildir. Həmçinin, yolu açıq olmayan və ya həccə çata biləcək dərəcədə vaxtı olmayan şəxsə həcc vacib deyildir.*

*- İmkanlı şəxs özü həccə getməlidir və başqasının onun tərəfindən həccə getməsi kifayət etməz. Amma həcci boynunda qalan və qocalıq, ya xəstəlik ucbatından həccə gedə bilməyən şəxsin əvəzinə başqa birisi həccə gedə bilər.*

## Neçə dəfə həccə getmək olar?

Bir nəfərə ömründə bir dəfə həccə getmək vacibdir. Amma elə olur ki, insan həcc ziyarətinə getməklə bağlı ruhi tələbat hiss edir. Cəmiyyətimizdə nədənsə həccə ikinci dəfə getmək istəyən insanlara nisbətdə: "Yaxşısı budur ki, həmin pula xeyriyyəçilik etsin" kimi yanaşma israrla yeridilir. Amma axı bu insanın ruhi tələbatı var. Bu halda, ona "həccə getmə, əvəzində xeyriyyəçilik et" demək, digər şəxsə "bu il istirahətə getmə, evində qal, onun puluna xeyriyyəçilik et" demək kimi olar. Yəni hər şey insanın niyyətindən asılıdır. Əgər həccə getmək onun daxili tələbatı ilə bağlıdırsa, bununla ruhu dincəlirsə - bu, bir məsələ. Əgər həccə getmək insan üçün belə bir səciyyə daşımırsa - bu, tam fərqli bir məsələdir. Hər şey niyyətə qayıdır.

O ki qaldı xeyriyyəçiliyə, bu, həccə gedib-getməməsindən asılı olmayaraq, insanın üzərində olan mənəvi vəzifədir. Qurani-Kərimdə buyurulur: "Onlara ruzi olaraq verdiklərimizdən infaq edərlər (xeyriyyəçiliyə xərcləyərlər)". Hər bir insan çalışmalıdır ki, imkanı olmayanlara əl tutsun.

## "Hacı" rütbəsi varmı?

Öncə bir-iki kəlmə də həcc ziyarətinin bahalığı ilə bağlı demək lazımdır. Sözsüz ki, hazırkı qiymətlər yüksəkdir və bu, bir çox insanların yolunu bağlayır. Bu vəziyyətdən çıxış yolu - operatorların sayının artmasında, həcc ziyarətinin inhisarda olmamasında, sağlam rəqabət mühitinin formalaşmasındadır. Yəni, həcc ziyarətinin təşkili tamamilə rahat olaraq, peşəkar şirkətlərə həvalə oluna bilər. Orada insanların şəri suallarına, əməllərinin yerinə yetirilməsinə gəldikdə, həmin şirkətlər bu sahənin mütəxəssislərini cəlb edə bilər ki, bununla da bağlı heç bir obyektiv çətinlik yoxdur. Yəni həcci inhisarda saxlamaq üçün heç bir obyektiv səbəb yoxdur.

Hacı adına gəldikdə isə, zahirən, belə bir dini rütbə yoxdur. Müqəddəs Kitabımız olan Qurani-Kərimdə, hədislərimizdə həcc ziyarətində olan insanlara "hacı" deyə işarə edirlər, ənənəvi olaraq, ziyarətdən qayıdan insanları da belə çağırırlar. Və bu ad, Allah Evini - Kəbə Beytullahı ziyarət edən insanın üzərinə müəyyən mənəvi təhəddüdlər müəyyən edir. Hacı - digərlərinə nisbətən daha məsuliyyətli, əxlaqi dəyərlər baxımından daha dürüst və səliqəli olmalıdır. O, öz ətrafına təmasda olduğu nurun mübarəkliyini paylamalıdır.

## Qurban bayramının əməlləri

**Bir neçə kəlmə də Qurban bayramı gününün əməlləri barədə qeyd edək:**

Bayram qüslü almaq;.

Qurban bayramının namazını qılmaq;

İmam Səccadın (ə) "Səhifeyi-Səccadiyə" dua kitabının 48-ci duasını oxumaq;

"Nüdbə" duasını oxumaq;

İmam Hüseynin (ə) Qurban bayramına məxsus ziyarətnaməsini oxumaq;

Qurban kəsmək;

Qurban bayramı gününün zöhr namazından etibarən zilhiccə ayının 12-ci gününün sübh namazına kimi 10 namazın sonunda aşağıdakı təkbiri söyləmək böyük savaba malikdir: "Allahu əkbər, Allahu əkbər, lə ilahə illəllah, vallahu əkbər, Allahu əkbər və lillehil-həmd. Allahu əkbəru əla mə hədənə. Allahu əkbəru əla mə razəqnə min bəhimətil-ən'am. Vəlhəmdu lilləhi mə əbləne».

Allah Təala bizləri bu əzəmətli bayramın mahiyyətini dərk edib, yaşadanlardan qərar versin! Amin!

YENİ MÜSAVAT
N 207 (6235) 18 sentyabr 2015

# Ciddi təhlükə törədən parkinq yerlərinin ləğvi müzakirəyə çıxarılır

**Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC Bakıda əhaliyə və şəhərin yol-nəqliyyat infrastrukturuna təhlükə yaratdığı üçün bəzi ərazilərdə parkinq yerlərinin ləğv edilməsi ilə bağlı Nazirlər Kabinetinə müraciət edib.**



Bunu «Trend»ə "Azəryolservis" ASC-nin Mətbuat Katibliyinin rəisi Anar Nəcəfli deyib.

Onun sözlərinə görə, paytaxtın bir sıra avtomobil tunellərinin üzərində qanuni-qanunsuz parkinqlər yaradılıb ki, onlar çox böyük təhlükə mənbəyinə çevrilib: "Parkinq yerlərinin bəziləri qanunsuz, bəziləri isə qanunidir və hətta həmin ərazilərdə parkomatlar quraşdırılıb. Həmin duracaqlarda eyni anda 100-200 avtomobil dayanır. Lakin tunellər inşa edilərkən bu qədər yükə, onun üstündən avtomobillərin duracaqları üçün istifadə edilməsinə hesablanmayıb. Həmin tunellərin içi və üstü sadəcə nəqliyyat vasitələrinin hərəkəti üçün hesablanıb".

**A.Nəcəfli qeyd edib ki, düzdür, hələlik bu gün hər şey normaldır. Lakin heç kim zəmanət verə bilməz ki, həmin ərazilərdə hər hansı bədbəxt hadisə baş verməyəcək:** "Məsələn, Bakının "Şamaxinka" deyilən ərazisi var. Orada Moskva prospektindəki tunelin üstündə parkomatlar quraşdırılıb və ərazi parkinq kimi istifadə olunur. Lakin o tunel duracaqdakı avtomobillərin ağırlıq yükünə hesablanmayıb. Sabah hər hansı bədbəxt hadisə baş verəndə heç kim orada parkomat quraşdıranlardan hesab sormayacaq. Hamı bizi günahlandıracaq. Başqa ərazilərdə isə tunellərin üstündən qanunsuz parkinq kimi istifadə olunur. Bunlara nəzarət gücləndirilməli və aradan qaldırılmalıdır. Allah eləməsin, heç kim sabah orada hansısa bədbəxt hadisənin baş verməsindən sığortalanmayıb. Bu isə ilk növbədə, insanların, əhalinin həyatı üçün təhlükə törədir".

**O əlavə edib ki, "Azəryolservis" ASC bununla əlaqədar Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyasına müraciət ünvanlayıb:** "Biz Komissiyaya konkret təklif irəli sürmüşük ki, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədilə böyük məbləğdə dövlət vəsaiti hesabına Bakı şəhərində inşa edilmiş tunellərin üstünün və yolötürücülərin alt hissəsinin parklanma üçün istifadəsi qadağan edilsin. Tunellər hələ ki yenidir və ona görə də nisbətən dözümlüdür. Lakin tunelin üzərində saxlanılan 100-200 avtomobilin ağırlığı nəticəsində getdikcə həmin tunellərin üstündəki yolların elastikliyi itir. Bir müddət sonra isə tunellər yükün ağırlığına tab gətirməyib dağıla bilər. Bir daha bildirirəm ki, bu sahədə vəziyyət həqiqətən çox acınacaqlıdır və ciddi fəsadları ola bilər".


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda ərzaq mağazasına basqın: satıcını vurub kassanı apardılar

**Paytaxtın Nərimanov rayonunda mağazalardan birinə basqın olub. Bu barədə vesti.az-a rayonun polis idarəsindən məlumat verilib. Məlumata görə, sentyabrın 16-da səhər saat 6-da naməlum şəxs Təbriz küçəsi 59 ünvanında yerləşən ərzaq mağazasına basqın edib. O, satıcının başına bir neçə dəfə vurub və 850 manatın olduğu kassanı boşaldıb.**

Zərərçəkən 1956-cı il təvəllüdlü Əlizadə Mahmud Bahadur oğlu bildirib ki, basqın edən şəxs maskada olmayıb.

Onun sözlərinə görə, bu yaxınlarda cinayətkar alıcı qismində mağazaya gəlib və Əlizadə onu yadında saxlayıb. Hazırda Əlizadənin ifadələri əsasında şübhəli şəxsin fotorobotu hazırlanır. Axtarışda olan şəxsin şəxsiyyəti hələ müəyyən olunmayıb.

Fakt üzrə istintaq aparılır.


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**




## Xalq artistinin ərinin evindəki qətlə görə məhkəmə başladı

**Sentyabrın 17-də Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanın xalq artisti Nuriyyə Əhmədovanın keçmiş həyat yoldaşı Xanlar İbadovun evində Sabir Qurbanovu qətlə yetirən Yelena Maxrovanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının əldə edtiyi xəbərə görə, prosesə hakim Faiq Qəniyev sədrlik edib.

Prosesdə şahid qismində Akif Abdullayev ifadə verib. Məhkəmə prosesi sentyabrın 22-dək təxirə salınıb.

Xatırladaq ki, qətl hadisəsi bu il martın 8-də Sabunçu rayonunun Bakıxanov qəsəbəsində baş verib. Əvvəllər məhkum olunmuş S.Qurbanov və onunla qeyri-rəsmi nikah münasibətlərində olan Y.Maxrova X.İbadovun evində yaşayıb. Y.Maxrova mübahisə zəminində S.Qurbanovu qətlə yetirib.

Y.Maxrova Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə) maddəsi ilə ittiham olunur.

İstintaq zamanı hər iki şəxsin tüfeyli həyat tərzi keçirdiyi məlum olub. Hadisə baş verən gün S.Qurbanov evdəki tanışları ilə yeyib-içib. Evə gələn Yelena sərxoş olan əri ilə mübahisə edib. Əsəbini saxlaya blməyən qadın bıçaqla ona bir zərbə vurub. Daxili qanaxmadan S.Qurbanov elə evdə keçinib.



## Bakı-Sumqayıt yolunda reyd

**Sentyabrın 17-də Bakı-Sumqayıt yolunda baş verən ağır yol qəzasından sonra Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) və Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) həmin yolda reydlərə başlayıb.**

"Report"un reyddə iştirak edən əməkdaşı xəbər verir ki, reyd qanunsuz olaraq sərnişin daşınma fəaliyyəti ilə məşğul olan, xətdən kənar, lisenziya və müvafiq sənədlər olmadan idarə olunan avtobus və mikroavtobus sürücülərinə qarşı keçirilib. Reyd zamanı 10-a yaxın sürücü cərimələnib və qanunsuz sərnişindaşıma ilə məşğul olan avtobus və mikroavtobuslar cərimə meydançasına aparılıb.

Reyd zamanı qaydaları pozan və əmrə tabe olmayan, müvafiq sənədlər təqdim etməyən sürücülərlə DANX və BDYPİ əməkdaşları arasında mübahisələr də düşüb. Onlar Daxili İşlər Nazirliyinin (DİN) Post Patrul Xidmətinin əməkdaşları tərəfindən polis şöbəsinə aparılıb.

**Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin 8 saylı regional ərazi idarəsinin böyük məsləhətçisi Vüqar Nuriyev sayta bildirib ki, Bakı-Sumqayıt yolunda baş verən qəza ilə bağlı nazirlik heç bir məsuliyyət daşımır. Onun sözlərinə görə, Bakı-Sumqayıt yolunda qəzaya düşən mikroavtobusun Nəqliyyat Nazirliyinə heç bir aidiyyəti yoxdur:** "Qəzaya uğrayan mikroavtobus qanunsuz sərnişindaşıma fəaliyyəti ilə məşğul olurmuş. Mən Sumqayıt sakinlərinə səslənirəm ki, xətdən kənar, qanunsuz fəaliyyət göstərən mikroavtobuslara minməsinlər. Çünki onlar lisenziya almadan, sənədsiz, qanunsuz sərnişindaşıma fəaliyyəti ilə məşğul olurlar. Nəticədə də bu kimi qəza halları baş verir, insanlar həyatını itirir, yaralanır".

YENİ MÜSAVAT

Son səhifə

N 207 (6235) 18 sentyabr 2015

# Saturnda okean tapıldı

NASA-nın "Cassini" adlı kosmik raketi Saturn planetinin altıncı böyük peyki olan Enceladusun buz səthinin altında bütün səthini əhatə edən okean olduğu haqda faktlar əldə edib. 7 il davam edən araşdırmalardan sonra haqqında danışılan faktları əldə etmək mümkün olub. Amerikanın İthaca şəhərindəki Cornell Universitetinin yayımladığı "İcarus" jurnalında yazılıb ki, peykin səthindəki buzun altında axıcı su kütləsi və orada bu günə qədər elmə məlum olmayan canlıların olması güman edilir. Təxminən 500 kilometrlik peykin cazibə qüvvəsini araşdıran alimlər buzla əhatə olunmuş sahənin 30-40 kilometr dərinliyində okean olduğunu, həmin okeanın isə ən azı 10 kilometr dərinliyi olduğunu güman edirlər. Gizli okeanın Günəş sistemindəki canlı həyata ən uyğun yer olduğu bildirilir.



## Dünyanın ən uzun şüşə körpüsü



Çində yerdən 180 metr hündürlükdə inşası davam edən şüşə asma körpü görənləri heyrətə salır. Shiniuzahai Təbiəti Qoruma Sahəsində yer alan, Stone Buddha Dağının iki təpəsini bir-birinə bağlayan asma körpünün uzunluğu 270 metr olacaq. 1 oktyabrda tamamlanması gözlənən körpü şüşədən hazırlanmış ilk ən uzun körpü olacaq. Yüksək qayalıqların arasında davam edən təhlükəli işə 11 mühəndis rəhbərlik edir.

## Toyuna ilan və kərtənkələləri də dəvət etdi



İngiltərədə bir cütlük ilan, kərtənkələ kimi sürünənlərin dəvətli olduğu bir toyla ailə həyatı qurub. Toya dəvət edilən digər qonaqlar isə cütlüyün istəkləri qarşısında şoka düşüblər. İngiltərənin Rugby qəsəbəsində evlənən 39 yaşlı Paul Freakley və Janet Stillin qeyri-adi toyu hər kəsi heyrətləndirib. Gənc cütlük əqrəb, ilan, kərtənkələ kimi heyvanların ətrafında nikaha daxil olublar. Jurnalistlərə müsahibə verən Paul Freakley "Bizimki bir az fərqli toy oldu. Bəzən toyda edilən çıxışlar qonaqları bezdirir. Bəzən də qonaqlar gəlinlə bəyi təngə gətirir. Biz də heyvanların olduğu bor toyda heç kəsin sıxılmayacağını düşünərək bu addımı atdıq", deyə açıqlama verib.

Qəzetin yazdığına görə toyda diqqət bəylə gəlinin deyil, quyruqlu sürünənlərin üzərində olub.

# Şokoladın 12 faydası

1.Şokoladın tərkibində olan antioksidanlar xərçənglə mübarizədə faydalıdır.

2. Şokolad zəngin kalsium qaynağıdır.

3. Şokolad xüsusilə qadınların psixologiyası üzərində müsbət təsirlərə malikdir.

4. Güclü dişlər bədəndə olan florun miqdarından asılıdır. Şokolad bu maddə ilə də boldur.

5. Şokoladın tərkibindəki maddələr insanda xoşbəxtlik hormonunu artırır.

6. Şirniyyatın tərkibində olan dəmir və sairə maddələr dərini gözəlləşdirir, hüceyrələri yeniləyir.

7. Hər gün az miqdarda şokolad yemək qəfil infarkt riskini aradan qaldırır.

8. Şokolad insanın enerjisini artırsa da, qanda şəkərin miqdarını sürətlə artırmır.

9. Qəhvə içmək yerinə şokolad yemək daha faydalıdır.

10. Şokolad dişə ən az ziyan vuran şirniyyatdır.

11. Şokoladdakı yağ qandakı xolesterinin artmasına səbəb olmur.

12. Şokolad insanın beynindən pis fikirləri, kin hissini, qisas almaq arzusunu dağıdır.



## Məkkəyə viski aparmaq istədi



"Məni niyə saxlayırsınız? Məni niyə yoxlayırsınız?! Həccə gedirəm, zəvvaram, hacıyam, qəzəbimə gələrsiniz!"

Bu sözləri deyən şəxs tez-tez "Allahu-əkbər!" deyib, qəzəblə danışıb. Gömrükçülərə polis isə şübhələndikləri bu şəxsin sözlərinə əhəmiyyət verməyərək onun üst-başını axtarmağa başlayıblar. Sonuc yaxınlıqda durmuş sərnişinlərdə şok effekti yaradıb. Milli.az "Al Arabia"ya istinadən bildirir ki, Məkkəyə yollandığını deyən adamın üstündən 12 butulka viski çıxıb. Bu şəxs spirtli içki idxalının qəti qadağan olunduğu Səudiyyə Ərəbistanına qaçaqmal yolu ilə viski keçirmək istəyirmiş. Alt paltarında və şalvarında "gizli ciblər" tikən "hacı"nı indi sərt cəza gözləyir. Spirtli içki qaçaqmalçısı, Məkkəyə yollandığını deyən şəxs Kral Fəhd körpüsünün girişində saxlanılıb. Bu şəxs ən azı 6 aylıq həbs və 75 şallaq cəzası alacaq.

## Qoroskop




QOÇ - Səhhətlə bağlı narazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

BUĞA - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Səfərə çıxsanız, ehtiyatlı olun.

ƏKİZLƏR - Bütün göstəricilər gün boyu ovqatınızın xoş olacağını proqnozlaşdırır. Xüsusilə saat 14-16 aralığında xoş bir təsadüflə rastlaşacaqsınız. Ailə üzvlərinizlə mehriban davranın.

XƏRÇƏNG - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

ŞİR - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

QIZ - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Amma özünüzü təxribatlardan qorumalısınız.

TƏRƏZİ - O qədər də uğurlu təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

ƏQRƏB - Fəaliyyət durumunuzda müəyyən problemlər gözlənilir, münasibətlərə fikir verin. Bundan kənarda işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

OXATAN - Günün ümumi ovqatını nəzərə alıb əsas vaxtınızı istirahətə yönəldin. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, gəzintilərə aludə olmağa dəyər.

OĞLAQ - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

SUTÖKƏN - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etməklə, kimsəsizləri sevindirməklə böyük savab qazanmış olarsınız. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

BALIQLAR - Maliyyə vəziyyətiniz imkan versə, mütləq səfərə çıxın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qulaqcıqlara əlvida



İngiltərədəki "Studio Banana Things" firmasının istehsal etdiyi "Batband" adlı cihazlardan sonra qulaqcıqlar tarixə qovuşacaq. Başa taxılan və başdakı sümüklər vasitəsilə beyinə ötürülən siqnallar musiqi dinləməyi daha da asanlaşdırır. "Batband" adlı cihazın əsas özəlliyi odur ki, qulaqlar qapalı olmadığı üçün ətrafda baş verən hadisələrdən də xəbər tutmaq mümkün olur. Blutuz vasitəsilə telefona qoşulan cihaz danışmaq üçün olduqca əlverişlidir və qulağı qapatmadan telefonla danışmaq olur.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300